Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

18
APREL
2019-cu il
№ 69 (3967)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# TƏRTƏRİN İŞĞAL OLUNMUŞ SUQOVUŞAN KƏNDİNDƏ ERMƏNİLƏRİN «KÖMÜR-NEFT OYUNU»...

■ səh. 5 ■

Prezident Çin-Azərbaycan əməkdaşlığının yeni mərhələsinin ən vacib istiqamətlərini göstərdi...
■ səh. 3 ■

"Cənub Qaz Dəhlizi"nin doldurulması Azərbaycanın rolu barədə müzakirələri təzələdi...
■ səh. 7 ■

Paris kilsəsinin bərpasında Heydər Əliyev Fondunun təcrübəsindən istifadə məsələsi gündəmdə...
■ səh. 4 ■

Aqrar məhsullarımızın xarici satış bazarlarına tələbatı inanılmaz sürətlə artır...
■ səh. 10 ■

Kartof-kələm qiymətləri sabitləşdimi - nazirliyin təqdimatları ilə bazarlardakı vəziyyət uyğun gəlmir...
■ səh. 10 ■

Bir neçə nazirliyin Bakıdakı körpələr evlərində aşkarladığı nöqsanlar necə qarşılandı?...
■ səh. 11 ■

Bakıdakı 20 saylı məktəbdə "İspan günləri" tədbirinə şagirdlərdən pul yığılması xəbəri araşdırıldı
■ səh. 14 ■

Ölmüş şəxslərdən orqan köçürülməsilə bağlı qanun dəyişdirilir
■ səh. 12 ■



## Qarabağ prosesində üç yenilik - Rusiya fəallaşır, ümidlər artır, Ermənistanın öhdəliklərdən qaçmaq imkanları tükənir...

■ səh. 9 ■



Moskvada son Qarabağ görüşünün əsl mənası - Ermənistan substantiv danışıqlar masasına gətirildi...
■ səh. 8 ■

Eyni dərmanı Bakıdakı məşhur «Alman apteki»ndən və başqa apteklərdən alsaq... qiymətlərdə böyük fərqin sirri...
■ səh. 12 ■



Təhsil Nazirliyi ənənəvi dərslik tənqidçilərini fakt qarşısında qoydu - bəzi sinif dərsliklərinin geniş ictimai müzakirəsi başladı...
■ səh. 11 ■

■ səh. 6 ■
İş adamının ittihamları, yüksək ədliyyə məmurunun hədəfə gətirilmiş adı və Prezidentin məmurlara ciddi həyat tərzi tələbləri...



■ səh. 5 ■
Müsavatda çəkişmə rəhbərlikdə müzakirə olunacaqmı - bu sualın da cavabı fərqli oldu



■ səh. 13 ■
Bank kreditlərinə son faiz həddinin qanunla rəsmiləşdirilməsi mümkündürmü...



■ səh. 14 ■
Məscidin axundunun iş yerində dollar saxlaması...



■ səh. 15 ■
Qədim xalq sənəti növlərimiz özünüməşğulluq proqramlarında...



## Prezident Sumqayıt Məhkəməsinin hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verdi

**Prezident İlham Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduğuna görə Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Musa oğlu Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilsin.

## Polşada AXC-nin müstəqilliyinin tanınmasına həsr edilmiş xatirə lövhəsi açıldı

**Polşa Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov 1920-ci ildə Polşa Respublikası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınmasına həsr edilmiş xatirə lövhəsinin açılışı mərasimində iştirak edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, tədbirdə, Polşa Respublikasının xarici işlər naziri Yaçek Çaputoviç də iştirak edib. Mərasimdə çıxış edən nazir Elmar Məmmədyarov Azərbaycan və Polşa arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, Azərbaycanın Polşadakı Səfirliyinin araşdırmaları nəticəsində Polşa arxivlərindən iki ölkə arasındakı münasibətlərə həsr olunmuş maraqlı sənədlərin üzə çıxdığını bildirib. Bu xüsusda, nazir Elmar Məmmədyarov 1920-ci ilin 13 fevral tarixində Polşa xarici işlər naziri Stanislav Patekin Azərbaycan Hökumətinə teleqram ünvanlayaraq Polşanın Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıdığını diqqətə çatdırıb. Həmçinin 1918-ci ildə Polşa diplomatı Vatslav Ostrovskinin Polşanın Azərbaycandakı diplomatik nümayəndəsi təyin olunduğu qeyd edilib. Nazir Elmar Məmmədyarov 100 il bundan öncə Polşa diplomatlarının Azərbaycan üçün göstərdiyi fəaliyyəti yüksək dəyərləndirərək, iki ölkə arasındakı bağların bugün də güclü olduğunu və tərəflər arasında strateji əlaqələrin mövcudluğunu qeyd edib. Öz növbəsində, Polşanın xarici işlər naziri Yaçek Çaputoviç iki ölkə arasında münasibətlərin tarixi əhəmiyyətinə həsr edilmiş xatirə lövhəsinin açılışını yüksək qiymətləndirib. Polşanın 100 il bundan öncə dövlətlərin suverenliyinin dəstəklənməsi istiqamətində fəal iş apardığını və bu siyasətin bugün də davam etdirildiyini qeyd edib. Polşalı mütəxəssislərin XX əsr ərzində Azərbaycanın ictimai-siyasi həyatına verdiyi töhfəyə toxunan polşalı nazir Azərbaycanın neft hasilatı, Bakının arxitekturasının inkişafı və digər sahələri xüsusilə vurğulayıb. Nazirlər Azərbaycan-Polşa münasibətlərinə dair ətraflı fikir mübadiləsini ikitərəfli görüşdə davam etdiriləcəyini vurğulayıb.

# "Twitter"də işğal edilmiş ərazilərimizdə qanunsuz fəaliyyətlərlə bağlı "Armenian Occupation Watch" adlı hesab yaradıldı

**Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini şübhə altına alan istənilən fəaliyyət Xarici İşlər Nazirliyinin və ölkəmizin diplomatik nümayəndəliklərinin daima diqqət mərkəzindədir.**

Bu kimi fəaliyyətlər tərəfimizdən daim izlənilir və sözügedən fəaliyyətin qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.



Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən baki-xeber.com-a daxil olan məlumata görə, bu xüsusda Nazirlik tərəfindən "Twitter" sosial şəbəkəsində Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində aparılan qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərə dair məlumatı əks etdirən "Armenian Occupation Watch" (https://twitter.com/ArmenOccupWatch) adlı hesab yaradılıb. Sözügedən "Twitter" hesabında bir sıra xarici dövlətlərdə qeydiyyatdan keçmiş hüquqi və fiziki şəxslərin ölkəmizin işğal edilmiş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətə cəlb olunması ilə bağlı məlumatlar, faktlar və foto şəkillər yerləşdirilir.

**Paylaşılan məlumatlarda xarici fiziki və hüquqi şəxslər tərəfindən ölkəmizin suverenliyi və ərazi bütövlüyünün pozulması halları, xüsusilə işğal olunmuş ərazilərdə birbaşa və ya dolayısı ilə qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi diqqətə çatdırılır və bu fəaliyyətə son qoyulmasına çağırış əks olunur.**

# Ramiz Rzayev məhkəmələrdə problemli kreditlərlə bağlı işlərin icraatının təxirə salındığını dedi

**Prezident İlham Əliyev fiziki şəxslərin problemli kreditlərinin həlli barədə fərman imzaladığı gündən məhkəmələrdə baxılan problemli kreditlərlə bağlı işlərin icraatı təxirə salınıb.**

"Trend"in məlumatına görə, bunu Ali Məhkəmənin sədri Ramiz Rzayev deyib.

R.Rzayev bildirib ki, fərmanın icrası ilə əlaqədar bütün lazımi tədbirlər görülüb, Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birgə işçi qrupu yaradılıb.

O vurğulayıb ki, fərmandan gələn tələblər yüksək səviyyədə yerinə yetiriləcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında 28 fevral 2019-cu il tarixli Fərmanı devalvasiyanın təsirlərini aradan qaldırmağa və problemli kreditlərin həllinə şərait yaradıb. Ölkənin sosial həyatı üçün olduqca mühüm olan, 800



mindən artıq insanın problemli kredit narahatlığını aradan qaldıran bu addım Azərbaycan Prezidentinin yüksək humanizmini, onun daim ölkə vətəndaşının yanında olduğunu bir daha nümayiş etdirir.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

**Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.**

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# AQTA adından rüşvət alan daha bir dələduzun görüntüləri yayıldı

**Bir neçə gün əvvəl Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) adından rüşvət toplayan şəxslərlə bağlı məlumat və hadisənin video görüntüsü ictimaiyyətə təqdim olunub.**



AQTA-dan "Trend"ə verilən məlumata görə, aprelin 12-də Agentliyin 1003 "Qaynar xətt"inə qurumun adından istifadə edən növbəti şəxslə bağlı şikayət daxil olub.

Araşdırma zamanı özünü AQTA əməkdaşı kimi təqdim edən şəxsin Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayonda yerləşən "Zaqatala" kafesinin sahibindən qanunsuz olaraq 39 manat 80 qəpik pul alması ilə bağlı şikayət öz təsdiqini tapıb. Belə ki, kafenin sahibi tərəfindən əvvəlcədən mağazada quraşdırılmış kamerada həmin şəxsin video görüntülərinin olduğu müəyyən olunub.

Qida Təhlükəsizliyi Agentliyi görüntülərdə əks olunan həmin şəxsin Agentliyin əməkdaşı olmadığını bildirir və faktla bağlı qanunvericilik çərçivəsində tədbirlərin görülməsi üçün məlumatların hüquq-mühafizə orqanlarına göndərildiyini diqqətə çatdırır.

Agentlik sahibkarlara özünü qurumun əməkdaşı kimi təqdim edən şəxslərdən ilk növbədə xidməti vəsiqələrini və yoxlama haqqında müvafiq sənədi təqdim etmələrini tələb etməyi tövsiyə edir, hər hansı şübhəli məqam olduğu təqdirdə hüquq-mühafizə orqanlarına və ya Qida Təhlükəsizliyi Agentliyinin 1003 saylı "Qaynar xətt"inə məlumat verməyi xahiş edir.

# Prezident Çin-Azərbaycan əməkdaşlığının yeni mərhələsinin ən vacib istiqamətlərini göstərdi...

*"Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir"*

**Aprelin 17-də Çinin "Sinxua" agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsini dərc edib.**



**- Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 26-cı ildönümü qeyd edilib. Cənab Prezident, Siz Azərbaycan-Çin münasibətlərinin hazırkı vəziyyətinə dair nə deyə bilərsiniz? Azərbaycanın xarici siyasətində Çinlə bağlı mövqeyi necədir?**

- 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çinə səfər etdi və həmin səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin təməlini qoydu. Həmin vaxtdan bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Azərbaycan və Çin dost ölkələrdir. Mənim Çinə 2005-ci ildəki rəsmi və 2015-ci ildəki dövlət səfərlərim ikitərəfli münasibətlərimizi inkişaf etdirmək və dərinləşdirməklə yanaşı, birgə iradəmizi bir daha təsdiq etdi.

Fəal siyasi təmaslarımız mövcuddur. Eyni zamanda, iqtisadiyyat sahəsində də fəal əməkdaşlığımız var. Azərbaycan Çinin təşəbbüsünə qoşularaq, Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Bir sıra Çin şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir və biz daha çox Çin şirkətlərini ölkəmizdə investor, ticarətçi və podratçı qismində görmək istəyirik. Azərbaycanda çox münbit sərmayə mühiti olduğundan, biz sənaye istehsalı, informasiya texnologiyaları, kənd təsərrüfatı və bir sıra digər sahələrdə daha çox Çin şirkətlərini görməyə ümid edirik.

Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bunula yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılmışdır. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər.

Humanitar sahədə əməkdaşlığımızın yaxşılaşdırılması münasibətlərimizin inkişafında vacib rol oynaya bilər. Düşünürəm ki, təhsil sahəsində daha fəal əməkdaşlığa ehtiyac var.

Azərbaycan özünün turizm sənayesinin inkişafına böyük diqqət ayırır və biz son illər bu istiqamətdə mühüm uğurlar əldə etmişik. Azərbaycana səfər edən Çin turistlərinin sayında 53 faiz artım var. Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza proseduru tətbiq edir. Vizanı Azərbaycanın beynəlxalq hava limanlarında əldə etmək olar. Azərbaycan və Çin arasında müntəzəm birbaşa uçuşlar həyata keçirilir.

Çinlə əlaqələr bizim xarici siyasətimizin prioritetlərindəndir. Əminəm ki, qarşıdan gələn illərdə Azərbaycan ilə Çin arasında mövcud olan dostluq əlaqələri xalqlarımızın tərəqqisi və rifahı naminə uğurla inkişaf edəcək və güclənəcəkdir.

**- Sizin 2015-ci ildə Çinə səfəriniz zamanı Azərbaycan və Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair Anlaşma Memorandumu imzalandı. Son illər ərzində "Bir kəmər, bir yol" layihəsi çərçivəsində iki ölkə tərəfindən əldə edilən irəliləyişi necə qiymətləndirirsiniz? "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan-Çin əməkdaşlığı üçün hansı sahələr prioritet təşkil edəcək?**

- Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var.

Biz dəmir yolu infrastrukturumuzun müasirləşdirilməsinə sərmayə yatırırıq. Ötən ilin may ayında biz Xəzər dənizində 15 milyon ton yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq liman istifadəyə verdik. Ehtiyac olduğu təqdirdə, onun imkanları 25 milyon tona qədər artırıla bilər. Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yük daşımaları üçün ən qısa nəqliyyat marşrutudur. 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 19 qatar yük daşınmışdır.

Coğrafi yerləşməmizdən istifadə edərək, biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək Yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb.

**- Bildiyiniz kimi, bu ay Pekində "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu keçiriləcək. Əməkdaşlığın dərinləşdirilməsi və bəşəriyyət üçün birgə gələcəyin qurulması baxımından bu layihə ilə bağlı gözləntiniz nədən ibarətdir?**

- Əminəm ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır. Bu layihələr geosiyasi vəziyyətə təsir edir, sabitliyə və proqnozlaşdırıla bilməyə töhfə verir və qarşılıqlı asılılıq yaradır. Qonşularsız biz tranzit ölkəyə çevrilə bilmərik. Yəni bu, dövlətlərdən ibarət zəncirdir və biz Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərindəyik. Bununla da biz qitələri və ölkələri birləşdirir və daha da proqnozlaşdırıla bilən gələcək qururuq.

"Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər. Bu layihə mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir. Ümid edirəm ki, "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu bu istiqamətdə növbəti addım olacaq və məhsuldar müzakirələrin aparılması üçün yaxşı imkan yaradacaq.

**- Bu il Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü qeyd olunur. Son illər ərzində Çinin inkişafını necə qiymətləndirirsiniz?**

- Əsrlər boyu Çin xalqı özünün qədim tarixi ənənələri və zəngin mədəniyyəti ilə bəşər sivilizasiyasının inkişafına töhfəsini verib. Çin Xalq Respublikası yarandığı tarixdən böyük inkişaf yolu keçib. Çin rəhbərliyinin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkə misilsiz nailiyyətlər əldə edib. Güclü iqtisadi inkişaf, ölkədaxili sabitlik və təhlükəsizlik, əhalinin yüksələn rifahı bunun aydın göstəricisidir. Biz Azərbaycanda Çinin müxtəlif sahələrdə əldə etdiyi böyük nailiyyətləri maraqla izləyirik.

Əminəm ki, Çin inkişaf, firavanlıq və tərəqqi yolu ilə getməkdə davam edəcəkdir. Bu işdə Çin xalqına və onun rəhbərliyinə yeni uğurlar diləyir, Çin Xalq Respublikasının yaranmasının qarşıdan gələn 70-ci ildönümü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

# Ramil Usubov Kollegiya iclasında əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri üzrə konkret tapşırıqlar verdi

**Aprelin 17-də Daxili İşlər Nazirliyində "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı", "İctimai yerlərdə baş verən cinayətlərin profilaktikası" və "Şəxsi heyətin peşə hazırlığının təşkili" sahələrində görülən işlərin vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Son illər ölkədə uğurla həyata keçirilən islahatlar, quruculuq işləri və hüquq mühafizə siyasəti çərçivəsində daxili işlər orqanlarında da fəaliyyətin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üzrə əhəmiyyətli işlər görüldüyünü, qarşıda duran vəzifələri yerinə yetirməyə qadir olan peşəkar kadr özəyinin formalaşdırıldığını diqqətə çatdırıb.

Sonra gündəlikdəki məsələlər barədə məruzə ilə çıxış edən Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov və Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov müzakirə olunan məsələlərlə bağlı respublikanın daxili işlər orqanları tərəfindən görülən işləri, xidməti fəaliyyətdə əldə olunmuş nəticələri, mövcud olmuş nöqsan və çatışmazlıqları diqqətə çatdıraraq onların aradan qaldırılması yollarından və qarşıda duran vəzifələrdən danışıb.

Məruzələr ətrafında çıxış edən bir sıra şəhər, rayon polis orqanlarının rəisləri gündəlikdəki məsələlər üzrə, həmçinin cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verərək, iclasda səsləndirilən iradların tezliklə aradan qaldırılacağına söz veriblər.

İclasa yekun vuran daxili işlər naziri R.Usubov, əvvəlki dövrlərdə olduğu kimi, cari ilin birinci rübündə də respublikada cinayətkarlıqla mübarizədə, daxili təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması sahəsində əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, bu işdə prokurorluq, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə birgə səmərəli fəaliyyətin mühüm rol oynadığını diqqətə çatdırıb.



O, gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarının işində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək, onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib, həmçinin əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri üzrə və aktual məsələlərə dair konkret tapşırıq və tövsiyələrini verib.

Vurğulanıb ki, təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı üzrə tədbirlər, ictimai yerlərdə baş verən cinayətlərin profilaktikası, şəxsi heyətin peşə hazırlığı sahələrində fəaliyyət gücləndirilməli, hər bir orqan və hissədə qanunçuluq, nizam-intizam möhkəmləndirilməli, vətəndaşların qəbulu, onların müraciətlərinə daha həssas münasibət göstərilməli, hər bir ərizə və şikayətə vaxtında və operativ baxılmalı, ümumən şəxsi heyətin tapşırılmış sahəyə məsuliyyətinin yüksəldilməsi istiqamətində işlər böyük əzmlə davam etdirilməlidir.

Yekunda nazir, general-polkovnik Ramil Usubov Prezident İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə müəyyən edilmiş vəzifələrin, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, ölkədə sabitliyin, əminamanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək.

***Baki-xeber.com***

# Paris kilsəsinin bərpasında Heydər Əliyev Fondunun təcrübəsindən istifadə məsələsi gündəmdə...

**Dünya mədəniyyətinin incilərindən biri olan Paris məşhur Notr-Dam kilsəsində baş verən yanğın hadisəsi bütün dünyada kədərlə, təəssüflə qarşılandı. Bu acı olaya ölkəmiz də biganə qalmadı.**

***Vaqif Abışov:** "Buna fondun uzun illərdən bəri qazandığı təcrübə də imkan verir"*

***Vüqar Rəhimzadə:** "Təbii ki, Heydər Əliyev Fondu Paris Notr-Dam kilsəsinin bərpasına öz töhfəsini verə bilər"*

Azərbaycan Prezidenti İlham Əliyev rəsmi "Twitter" hesabında Fransanın paytaxtı Parisdə məşhur Notr-Dam kilsəsində baş verən yanğınla bağlı paylaşım edib. "Fransanın və dünyanın mədəni irs incilərindən biri olan Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim. Ümid edirəm ki, abidə qısa müddət ərzində bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacaq" - deyə Prezident İlham Əliyev vurğulayıb.

Xatırladaq ki, Paris Notr-Dam kilsəsindəki yanğın zamanı kilsə üzərindəki uzun qüllənin bir hissəsi aşıb, həmçinin, məbədin saatı yanaraq məhv olub. Fransa Daxili İşlər Nazirliyi yanğından sonra kilsənin bərpasının çətin olacağını açıqlayıb. Bunun ardınca isə Fransa Prezidenti Emmanuel Makron kilsəni bərpa edərək yenidən əvvəlki vəziyyətinə qaytaracaqlarına söz verib. O qeyd edib ki, kilsə 5 il müddətində bərpa ediləcək. Ekspertlər isə kilsənin bərpasına 10-15 il tələb olunduğunu vurğulayırlar.

Xaricdə bir sıra tarixi abidələrin, eləcə də kilsələrin bərpasında böyük işlər görən və bu sahədə böyük təcrübəyə malik olan Heydər Əliyev Fondu Paris Notr-Dam kilsəsinin bərpasına nə kimi töhfələr verə bilər?

Mütəxəssislər bildirirlər ki, Heydər Əliyev Fondu həm ölkəmizdə, həm də bir sıra xarici ölkələrdə dünya mədəniyyətinin incisi olan bir sıra abidələrin, tarixi-dini məkanların bərpasında müstəsna rol oynayıb.

Ekspertlərin bildirdiyinə görə, fond tərəfindən xaricdə həyata keçirilən mədəniyyət layihələri bu qurumun mədəni müxtəlifliyə və ümumbəşəri dəyərlərə hörmətini mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun möhkəmləndirilməsinə töhfələrini verməklə əyani şəkildə nümayiş etdirir. Heydər Əliyev Fondu Parisdə Versal Sarayının parkındakı abidələrin, Luvr Muzeyinin, İkinci Dünya Müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində qorunan orta əsr əlyazmalarının, Vatikanda Roma katakombalarının və Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın bərpasını və təmirini həyata keçirib.

Bundan başqa, Heydər Əliyev Fondunun dəstəyilə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsi də dünyaya məlumdur.



Ekspertlərin bildirdiyinə görə, fondun bu sahədə gördüyü işlər, qazandığı təcrübə onun Notr-Dam kilsəsinin də bərpasına töhfə verməsinə imkanlar açır.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, bu sahədə Heydər Əliyev Fondunun çox böyük təcrübəsi var və bunu fondun indiyə qədər həyata keçirdiyi layihələr də təsdiqləyir.** "Bilirsiniz ki, Heydər Əliyev Fondu tərəfindən Roma kitabxanasında qədim əlyazmaların bərpası ilə bağlı çox böyük işlər görülüb. Eyni zamanda da Parisin məşhur Luvr Muzeyinin təmir və bərpasına da fond öz töhfələrini verib. Fond bərpa işləri ilə bağlı böyük təcrübəyə malikdir. Azərbaycan UNESCO-nun üzvüdür və üzv dövlət kimi bəşər mədəniyyətinin qorunması, mədəniyyət incilərinin bərpasına öz töhfəsini verib. Düşünürəm ki, Paris Notr-Dam kilsəsinin bərpasına da Heydər Əliyev Fondu öz töhfəsini verə bilər, buna fondun uzun illərdən bəri qazandığı təcrübə də imkan verir. Fond indiyə qədər bu sahədə çox böyük layihələr həyata keçirib və bu layihələr dünya mədəniyyətinin inkişafında, dinlər, millətlərarası əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayıb. Fond, həmçinin, Azərbaycanda da bir sıra tarixi, mədəni və dini abidələrin bərpa edilməsində yaxından iştirak edib" - deyə V.Abışov qeyd etdi.

**"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə də hesab edir ki, ehtiyac olarsa, Heydər Əliyev Fondu Paris Notr-Dam kilsəsinin bərpasında yaxından iştirak** edə bilər. O bildirdi ki, buna fondun illərdən bəri qazandığı təcrübə də imkan verir. "Heydər Əliyev Fondunun həyata keçirdiyi xeyirxah işlər sırasında hər zaman bəşəriyyətin qiymətli inciləri olan abidələrin bərpası da mühüm yer tutur. Fondun həm bərpa işlərinin, həm də humanitar tədbirlərin həyata keçirilməsində kifayət qədər təcrübəsi var. Təbii ki, Heydər Əliyev Fondu Paris Notr-Dam kilsəsinin bərpasına öz töhfəsini verə bilər. Bu çox normal haldır və fondun missiyasına daxildir. Əlbəttə, fond gördüyü uğurlu işlərlə dinlərarası əlaqələrin daha da möhkəmlənməsinə böyük töhfələr verir" - deyə V.Rəhimzadə bildirdi.

***İradə SARIYEVA***

# Tərtərin işğal olunmuş Suqovuşan kəndində ermənilərin "kömür-neft oyunu"...

**Ermənistan mediasında belə bir məlumat yayılıb ki, ermənilər Azərbaycanın Tərtər rayonunun işğal altındakı Suqovuşan (Madagiz) kəndi yaxınlığındakı daş kömür mədənləri vasitəsilə 400 min ton neft əldə etməyə hazırlaşırlar.**

***Hikmət İbrahimov:** "Azərbaycan neftin alına biləcəyi kömürlə yox, yanar şistlər deyilən yataqlarla zəngindir"*

***Çingiz Qaşqay:** "Azərbaycan ərazisində deyilən həcmdə daş kömür ehtiyatlarının olması inandırıcı deyil"*



Bu haqda son açıqlamasında Xankəndidəki separatçı-terrorçu rejimin keçmiş "dövlət naziri", "Azad vətən" "partiya"sının sədri Araik Arutyunyan məlumat verib. Onun sözlərinə görə, 2015-ci ildə Ermənistan Politexnik Universiteti Suqovuşan ərazisindəki kömür yatağında tədqiqat aparıb və sintetik yolla neft əldə etməyin mümkün olduğunu müəyyən edib. Məlum olub ki, mədəndən təxminən 400 min ton və ya 20 milyon dollarlıq "qara qızıl" əldə etmək olar. Universitet neftin istismarı sxemini də hazırlayıb. Lakin 2016-cı ilin aprel savaşı buna mane olub.

Bu məlumatın nə dərəcədə doğru olub-olmadığını yoxlamaq üçün uyğun sahənin mütəxəssislərinə müraciət etdik.

Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya ve Geofizika İnstitutu Filiz və qeyri-filiz faydalı qazıntı yataqlarının geologiyası və geokimyası şöbəsinin müdiri Çingiz Qaşqay "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan ərazisində deyilən həcmdə daş kömür ehtiyatlarının olması inandırıcı deyil: "Çox nadir hallarda rast gələnə bilər.

Amma deyilən həcmdə yoxdur. Kömürdən neft almaq mümkündür. Yəni elm bunu təsdiqləyir. Amma çox bahalı prosesdir. Ona görə də nefti olan ölkələr bu prosesə getmir. Çünki həmin proses neftin çıxarılmasından da baha başa gəlir".

**AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun direktor müavini Hikmət İbrahimov da qəzetimizə açıqlamasında ermənilərin iddialarının ciddi əsasının olmadığını bildirdi: "Əgər söhbət daş kömürdən gedirsə, bu inandırıcı deyil.**

Çünki Azərbaycanda belə yataqlar yoxdur. Amma Azərbaycan neftin alına biləcəyi kömürlə yox, yanar şistlər deyilən yataqlarla zəngindir. Ola bilər ki, ermənilər bu istiqaməti nəzərdə tuturlar. Çünki ölkəmizdə yanar şistlərin olduğu zəngin yataqlar var. Sadəcə, Azərbaycanda neft olduğuna görə həmin şistləri emal edib neft almaq perspektivli görünməyib.

**Deyilən istiqamət olduqca bahadır. Daşa bənzəyən həmin təbii ehtiyadan yüksək temperatur və təzyiqlə yanan hissəcikləri almaq olur. Yəni neftin tərkibində olan yanacaq növlərini almaq olar. Hətta bizim kimi iqtisadi gücü olan ölkəyə belə həmin ehtiyatları neftə çevirmək rentabelli deyil. Bir daha deyim ki, bahalı prosesdir. Təbii ki, Ermənistanın buna heç gücü çatan deyil. Prinsip etibarilə, neft olmayan zaman, məcburiyyətdən buna cəhd etmək olar".**

*Məhəmmədəli QƏRİBLİ*

# Müsavatda çəkişmə rəhbərlikdə müzakirə olunacaqmı - bu sualın da cavabı fərqli oldu

**Azərbaycan Xalq Hərəkatı deyilən qurumda baş verən çaxnaşma, dava-dalaş indi də başqa bir müxalif partiyaya sirayət edib. Bu dəfə Müsavat Partiyasının tanınmış funksionerləri bir-birilə açıq formada dalaşmaq yolunu tutublar. Görünən budur ki, artıq partiyanın daxilində olan intriqalar sosial şəbəkələrə transfer olunub.**

***Səxavət Soltanlı:** "Buna zərurət görünmür"*

***Mustafa Hacıbəyli:** "Partiyanın rəsmi mövqeyi olacaq"*




Müsavatın Divan üzvü Yadigar Sadıqlı özünün "Facebook" səhifəsində belə bir statusu yazıb: "Müsavat Partiyası üzvlərinin qapalı qrupunda başqan Arif Hacılının xeyir-duası ilə məni satqın, öyrədilmiş, Müsavatı parçalayan elan etmək uğrunda yarış gedir. Kimlərin etdiyini soruşmayın, əksəriyyətini heç tanımazsınız, profillərində hakimiyyət əleyhinə söz tapmazsınız".

Bu iddiadan sonra Müsavat başqanının müavini Səxavət Soltanlı Yadigar Sadıqlıya aşağıdakı cavabı verib: "Əlbəttə, ürək ağrısı ilə bu statusu yazıram. Söhbət Müsavat Partiyasına və yüzlərlə ləyaqətli və vicdanlı müsavatçıya atılan böhtandan gedirsə, cavab verməmək mənim kitabımda yoxdur.

Deməli belə, Yadigar Sadıqlının bütünlüklə Müsavat Məclisini təhqir etdikdən, provokativ hərəkətlər etdikdən sonra növbəti dəfə müsavatçılar haqqında böhtan və yalan yayması, guya müsavatçılar kiminsə göstərişi ilə ona "satqın" deyiblər... (Belə bir fakt yoxdur, mümkün deyil) Bu, müsavatçıları təhqir etməkdir.

Məsələnin mahiyyəti odur ki, Məclisdə etdiyi dözülməz davranışdan sonra hər kəs onun bu davranışını qınadı, ondan səhv etdiyini etiraf edib, üzr istəməsini tələb etdilər. O da müsavatçılardan dəstək görmədiyi üçün əsasən antimüsavatçılar və bu söhbətlərin detallarını bilməyən səmimi insanları çaşdırmaqla onların dəstəyini qazanmaq, Müsavat Partiyasına zərər vurmaq bahasına yalan və böhtan dolu status yazdı. Statusa və mövzuya əlavə olaraq. Siz siz olun, həyatda yaşadığı halda, fəaliyyət göstərdiyi müddətdə heç kim haqqında yüksək fikirlər yazıb özünüzü yazdıqlarınızın girovuna çevirməyin.

Siz siz olun, yalan-böhtan danışmayın. Bir dəfə yalan-böhtan danışdınızsa, məcbursunuz ki, növbətilərini uydurasınız".

Göründüyü kimi, Müsavat funksionerləri arasındakı qalmaqal hamının gözü qarşısında ictimailəşmiş formada aparılır. Bəs buna partiyanın rəhbər strukturlarının münasibəti necədir?

Bir neçə Müsavat funksioneri ilə əlaqə saxlasaq da, onlar bu barədə nəsə danışmaq istəmədilər.

**Səxavət Soltanlının özü isə "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələdə qeyri-adi nəsə görmür:** "Müsavat kifayət qədər demokratik bir partiyadır. Burda fikir müxtəlifliyinin, açıq polemikaların olması təbiidir. Yadigar bəy fikirlərini yazıb, mən də ona cavab vermişəm. Bunu partiyadaxili demokratiyanın yüksək olması ilə əlaqələndirirəm. Düşünmürəm ki, bu məsələ Müsavatın rəhbər strukturlarında müzakirə olunacaq. Buna zərurət görünmür".

**Partiyanın mətbuat xidmətinin rəhbəri Mustafa Hacıbəyli isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə vəziyyətin yaranmasına partiyanın mövqeyi mütləq olacaq: "Bununla bağlı partiyanın konkret rəsmi mövqeyi olacaq. Həmin mövqe açıqlanmayana kimi bu barədə nəsə açıqlama vermək istəmirəm".**

Müsavatda baş qaldıran qalmaqalla bağlı partiyanın mövqeyinin nə zaman açıqlanacağı ilə bağlı sualımıza isə Mustafa Hacıbəyli "ya bu gün, ya da sabah" cavabını verdi.

*Məhəmmədəli QƏRİBLİ*

# İş adamının ittihamları, yüksək ədliyyə məmurunun hədəfə gətirilmiş adı və Prezidentin məmurlara ciddi həyat tərzi tələbləri...

**"Avesta" şirkətinin prezidenti Hacı İbrahim Nehrəmli (İbrahim İbrahimov) son günlər müxtəlif media qurumlarında Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəisi Adil Əliyevlə "Avesta Konserni" MMC arasında mübahisənin olması barədə yayılan məlumatlara münasibət bildirib.**



Hacı İbrahim Nehrəmli bu günlərdə ölkə mediasına açıqlamasında deyib ki, Adil Əliyev haqqında yazılanlar doğrudur: "Yazılanlarda həqiqət var. İlk növbədə, qeyd edim ki, bu çox xoşagəlməz hadisədir və mən çox təəssüf edirəm ki, istəmədən bu münaqişənin iştirakçısı oluram.

Birincisi, orta ranqlı dövlət məmurunun təkcə bir yaşayış kompleksində 5 ədəd mənzil alması faktı ciddi suallar yaradır. İkincisi, adıçəkilən şəxsin 5 il gözləyib, daha sonra mənzilin ölçülərinin hesablama metodikasından şikayət edib, həm sahibkara, həm məhkəmə sisteminə, həm də dövlət ekspertizasına təzyiqlər etməsi və şantaj yolu ilə külli miqdarda pul, 100 min dollar və 60 min manat tələb etməsi dövlət məmuru adına tamamilə ziddir.

Məlumat üçün qeyd edim ki, sözügedən mənzillər Azərbaycan Respublikasının Nazirlər Kabinetinin əməkdaşları üçün tikilib, tikinti ilə məşğul olan "Tərəqqi" MTK-ya (daha sonra "Avesta Konserni" MMC-yə birləşdirilib) mənzillərin inşası üçün hər kvadratmetrə 465 manat ödənilsə də, faktiki, inşaat 600 manatdan baha başa gəlmişdir. Mən bu layihədə ciddi itkiyə məruz qalsam da, çox gözəl və standartlara uyğun yaşayış kompleksi təhvil vermişəm, şirkətim müqavilə üzrə üzərinə düşən işləri tam icra edib, binada yaşayış başlayıb, "kupça"lar verilmək üzrədir".

İ.Nehrəmli deyib ki, A.Əliyev dövlətin təklif etdiyi güzəştlərdən suiistifadə etməklə fərqli insanların adına güzəştli şərtlərlə 5 mənzil və 2 qaraj əldə edib. "Təsəvvür edin, orta ranqlı dövlət məmuru şəhərin mərkəzi rayonunda yerləşən binadan 5 ədəd iriölçülü mənzillər alır və mənzillərin hər kvadratı üçün ortalama 500 manat olmaqla ödəniş edir. A.Əliyev buna hansı yolla nail olub, xəbərim yoxdur. Halbuki, Nazirlər Kabinetində çalışan və bu mənzilləri güzəştli şərtlərlə əldə etmək istəyən daha ehtiyaclı və layiqli insanlar var. Əslində, A.Əliyevin ödədiyi məbləği ona qaytarıb, mənzilləri eyni şərtlərlə həmin insanlara satmaq daha düzgün olardı.

A.Əliyev iddia edir ki, mənzillərin ölçüsü "oxdan-oxa" deyil, "içdən-içə" ölçülməlidir. Dövlət ekspertizası isə məsələyə ədalətli baxa bilmir. Birincisi, A.Əliyev mənzillərdə əlavə qanunsuz arakəsmələr edib və ekspertizaya mane olur, ikincisi, dövlət ekspertizasına təzyiq edərək onun özünə lazım olan rəyi tələb edir. Onun sözlərinə görə, mənzilləri alanda da, şikayət edəndə də ədliyyə nazirinin şəxsi razılığını alıb. Yəni bu məmur hər addımında dövlətin vacib məmuru olduğunu vurğulayır, məhkəmələrə nazir müavinləri vasitəsilə təzyiqlər edir, şantaj edir. Biz onun kimliyini araşdıranda mətbuatda onun bu tip çoxsaylı münaqişəsinin olması barədə yazılarla tanış olduq. Mən anlamıram, bu şəxs dövlət məmurudur, yoxsa ölkəmizin ən iri əmlakçısı? Bu qədər əmlak, bu qədər əmlak münaqişələri bir məmurun adına çox deyilmi?".

İ.Nehrəmli Adil Əliyevin təzyiqlərinə əhəmiyyət vermədiyini söyləyib: "Mən Azərbaycanda ədalətli məhkəməyə inanıram. Bununla belə, üzümü birbaşa ədliyyə naziri hörmətli Fikrət Məmmədova tuturam. Biz hamımız Fikrət müəllimi çox yaxşı tanıyırıq, onun çox ciddi siyasi çəkiyə və hörmətə malik dövlət xadimi olduğunu bilirik. Hesab edirəm ki, bu tip münaqişələrdə Fikrət müəllimin adının hallanması, ümumiyyətlə, doğru deyil, yaraşmaz. Mən əminəm ki, Fikrət müəllim məsələdən xəbər tutsa, bu qanunsuzluğun qarşısını alacaq və Ədliyyə Nazirliyinin adından Adil Əliyev kimi şəxslərin bu formada istifadə etməsinə yol verməyəcək. Bu şəxsin əməllərinə son qoyulmalı və qarşısı alınmalıdır".

Bu məsələdə kimin nə dərəcədə haqlı olduğunu konkret deyə bilmərik. Çünki bəzi KİV-də gedən məlumatlarda yalnız bir tərəfin mövqeyi dinlənib. Kifayət qədər vacib post tutan Adil Əliyevin isə səslənənlərə reaksiyası müşahidə olunmur. Söhbət kifayət qədər məsul dövlət vəsifəsi daşıyan şəxsdən getdiyi üçün, biz bəzi detallara aydınlıq gətirməyi özümüzə borc saydıq. Əvvəla hörmətli Adil müəllim Hacı İbrahim tərəfindən səsləndirilən bütün ittihamlara cavab vermək kimi haqqa sahibdir. Biz ona bu imkanı yaratmağa hazırıq. Əgər Adil müəllim bunu etmək istəmirsə, onda mövzu ilə bağlı bəzi suallar açıq qalmış olur. Adil müəllim Hacı İbrahim kimi iş adamı olsaydı, bu mövzu ilə bağlı açıqlama verib-verməmək kimi məsələni onun öz öhdəsinə də buraxmaq olardı. Ancaq Adil müəllim məmur olduğu üçün, o, öz təmiz reputasiyasının qayğısına mütləq qalmalıdır. Çünki ölkə başçısı dəfələrlə bəyan edib ki, məmurlar xalqın xidmətçisi olmalı, sadə həyat tərzi keçirməlidirlər. Hacı İbrahimin iddialarından sonra isə həmin məmurla bağlı kifayət qədər şübhələr yaranmış olur. Həmçinin, həmin iddiaların doğru olub-olmaması da araşdırma üçün zəruri mövzuya çevrilmiş olur. Çünki Hacı İbrahim iddia edir ki, məmur əldə etdiyi əmlakları öz adına deyil, başqasının adına rəsmiləşdirib. Onda isə 5 ildən sonra hansı haqla o, məhkəməyə müraciət edə bilib. Niyə məhz 5 il sonra? Və ən əsası, mülklər başqasının adınadırsa, Adil müəllim necə iddiaçı qismində çıxış edə bilər? Yox, əgər həqiqətən Adil müəllim belə iddia ilə çıxış etmək məsuliyyətini öz üzərinə götürürsə, onda ortaya başqa suallar çıxır. Bir məmur bu qədər varidatı hansı yolla əldə edib? Başqa bir vacib məqam, iddia olunur ki, Adil müəllim həmin mənzilləri Nazirlər Kabinetinin işçiləri üçün tikilən binadan güzəştli şərtlərlə əldə edib. Ədliyyə sistemində çalışan bir şəxs başqa bir qurumun işçiləri üçün tikilən binadan özü də güzəştli şərtlərlə bir neçə mənzili yalnız təsir imkanları və vəzifəsindən sui-istifadə etmək yolu ilə əldə edə bilər. Təbii ki, burada mənzili satanların da məsuliyyəti var. Hər halda, onlar lazım olan məqamda bu qanunsuzluqla bağlı əlaqədar qurumlara şikayət etməlidirlər. Çünki qanunun aliliyini qorumaq, məmurla yanaşı, iş adamının da şərəfli borcudur. Hacı İbrahim müsahibəsində iddia edir ki, Adil müəllim vəzifəsindən istifadə edərək ekspertiza və məhkəmələrə təzyiq edir. Məlum olduğu kimi, cənab Prezident məhkəmə sistemində şəffaflığın artırılması ilə bağlı həmin sahədə islahatların aparılmasını zəruri sayan fərman imzalayıb. Belə halların olması, eyni zamanda, ədliyyə sisteminə olan güvəni sarsıda bilər. Hər halda, ortada ciddi ittihamlardan söhbət gedir. Biz dövlətimizi sevdiyimiz üçün, bütün məmurların sadə həyat sürməsi və şəffaf fəaliyyət göstərməsini istəyirik.

Ona görə də bu mövzunun dərindən araşdırılmasında maraqlıyıq. Yəqin ki, yaxın günlərdə ya Adil müəllimin özü, ya da onun təmsil olunduğu qurum səslənən iddialara aydınlıq gətirəcək.

*Məhəmmədəli QƏRİBLİ*

# İstanbulda seçki mübahisəsinə son qoyuldu, Əkrəm İmamoğlu mandatını aldı

**Türkiyə 31 mart seçkilərində ən çox mübahisələrə səbəb olan İstanbulda son qərar açıqlanıb.**

Baki-xeber.com xəbər verir ki, CHP-nin namizədi Əkrəm İmamoğlu mandatını alaraq İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri olub.

Bundan başqa, İstanbulda seçkilərin ləğvi ilə bağlı hakim AKP-nin etirazını dəyərləndirən Ali Seçki Komissiyasının qərarının açıqlanacağı gözlənir.

# AST Telmana İsveçrədə cinayət işi açıldı, iş adamını 5 ilədək həbs gözləyir

**Moskvanın Çerkizov bazarının keçmiş sahibi, Azərbaycan əsilli tanınmış rusiyalı iş adamı Telman İsmayılov İsveçrədə üç iqtisadi cinayətin törədilməsində şübhəli bilinir.**

Baki-xeber.com "Sputnik Azərbaycan"a istinadən xəbər verir ki, Rusiya KİV-i artıq Telman İsmayılova qarşı cinayət işi başladıldığını yazır. T.İsmayılov dələduzluqda, kreditorların ziyanına aktivlərin faktiki olaraq azaldılmasında və aktivlərin çıxarılmasında şübhəli bilinir. Cinayəti sübuta yetiriləcəyi halda onu 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

Rusiya mətbuatı yazır ki, İsveçrə hüquq-mühafizə orqanlarına müraciət edən "BM-bank"ın versiyasına əsasən, İsveçrədə İsmayılovun zəmanəti altında borca götürülən və kreditorlara geri qaytarılmayan vəsaitin müəyyən hissəsi gizlədilə və "yuyula" bilər.

# "Cənub Qaz Dəhlizi"nin doldurulması Azərbaycanın rolu barədə müzakirələri təzələdi...

*Azərbaycanın qaz gəlirləri, Avropanın isə enerji təhlükəsizliyi artır...*

**Hesablamalar göstərir ki, cari ilin yanvar-mart aylarında Azərbaycanda təbii qaz ixracı ölkə üzrə artaraq 3,2 milyard kubmetr təşkil edib. Bu da 2018-ci ilin analoji dövrünə nisbətən 27 faiz çoxdur. Xatırladaq ki, ixrac edilən qazın həcminin artmasının əsas səbəbi "Cənub Qaz Dəhlizi" layihəsi vasitəsilə "Şahdəniz-2" qazının Türkiyəyə nəql edilməsinə başlanmasıdır.**

İndiyə qədər sözügedən boru kəməri vasitəsilə 1,4 milyard kubmetr kommersiya məqsədli qaz nəql edilib. Türkiyəyə qaz ötən il istifadəyə verilən TANAP boru kəmərinin birinci qolu vasitəsilə çatdırılır. Lakin yaxın tezlikdə həm TANAP vasitəsilə daha böyük həcmdə qazın nəqli, həm də Azərbaycanın bu məhsulun satışından daha böyük miqdarda gəlir götürməsi gözlənir. Çünki az müddət sonra Azərbaycan qazının Avropaya nəqlinə start verilir.

Qeyd edək ki, Azərbaycanın "Şahdəniz-2" yatağından çıxarılan təbii qazın Avropaya ötürülməsinə və bölgənin təbii qaz təchizatına töhfə verəcək TANAP-ın Əskişəhərdən Ədirnə-İpsalaya qədər uzanan 2-ci fazasında son mərhələyə başlanıb. Avropaya qaz nəqli üçün nəzərdə tutulan 2-ci fazanın istismara verilməsi çərçivəsində bu il aprelin 15-dən etibarən sistemə qaz verilməyə başlanıb. Cari ilin iyununda sistemin istismara hazırlıq işlərinin tamamlanması və Avropaya sınaq məqsədilə qazın nəqli üçün hazır vəziyyətə gətirilməsi planlaşdırılır.

Ötən ilin iyununda keçirilən beynəlxalq açılış mərasimindən sonra işə salınan və birinci fazası çərçivəsində Türkiyəyə qaz nəqlinə başlanan TANAP layihəsinin 2-ci fazası bununla son mərhələyə daxil olub. Bu faza Avropaya qaz nəqli məqsədilə kəmərin Əskişəhərin Seyitgazi bölgəsindən başlayaraq Ədirnənin İpsala bölgəsinə qədər uzanan və Türkiyə-Yunanıstan sərhədində bitən hissəsinin inşasını əhatə edir. TANAP-ın iyunun sonunda Avropaya qaz nəqli üçün hazır vəziyyətə gətirilməsindən sonra "Cənub Qaz Dəhlizi"nin son halqası olan, Türkiyə-Yunanıstan sərhədindən başlayaraq İtaliyaya qədər uzanan "Transadriatik" (TAP) boru kəmərinin tikintisinin tamamlanması və qaz axını üçün hazır vəziyyətə gətirilməsi gözlənir. TANAP vasitəsilə Avropaya kommersiya məqsədli qaz nəqlinin TAP-ın istismara verilməsi üzrə işlər tamamlanandan sonra gələn ilin əvvəlində başlaması gözlənir.

Bir daha xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin mühüm hissəsi olan TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək. Sınaq işlərindən sonra Türkiyə ilə yanaşı, artıq ilin sonunadək Yunanıstana da Azərbaycandan təbii qaz nəql ediləcək. Məhz bununla da Azərbaycan artıq Avropanın enerji bazarında mövqelərini daha güclü hala gətirəcək. Xorvatiyanın sabiq prezidenti Stepan Mesiç bu xüsusda vurğulayır ki, Azərbaycan bu gün Avropa İttifaqı ilə energetika əməkdaşlığını inamla genişləndirir: "Buna görə də Avropanın gələcək energetika xəritəsində "Cənub Qaz Dəhlizi"nin əsas rolu daha aydın görünür. Avropa və Azərbaycan möhkəm qarşılıqlı əlaqələrdə maraqlıdır". Burada bir məqamı da bir daha xatırladaq ki, Azərbaycan bu gün Avropanın ən böyük enerji tərəfdaşlarından biridir və təkcə iqtisadiyyata deyil, enerji təhlükəsizliyinə də öz töhfəsini verməkdədir. bu fonda isə "Cənub Qaz Dəhlizi" Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində yeni səhifə olmaqla ölkəmizə öz təbii sərvətlərini Avropa bazarlarına nəql etmək üçün yeni imkanlar qazandırır. "Cənub Qaz Dəhlizi" həm Azərbaycanın iqtisadi inkişafına, həm də Avropanın enerji təhlükəsizliyinin təmininə böyük töhfə olacaq. Özü də bunlar o zaman baş verir ki, Rusiyanın "Şimal axını-2" layihəsi ilə gözlənilməz dəyişikliklər fonunda Şərqi Avropa ölkələri Azərbaycanın "Cənub Qaz Dəhlizi"nə getdikcə daha çox maraq göstərir.




Xatırladaq ki, əvvəlki kimi bir sıra Qərb ölkələri "Şimal axını-2" layihəsinə qarşı çıxır. ABŞ-ın energetika naziri Rik Perri hətta bildirir ki, Rusiyanın "Şimal axını-2" və "Türk axını" qaz boru kəmərləri zərərli təsirlərin vasitəsidir: "Rusiya tez-tez Avropa İttifaqı və ABŞ-a qarşı zərərli taktikalarından istifadə edərək birliyimizə zərər verir. Rusiya enerji bazarı üzərindəki təsirindən yararlanaraq siyasi hədəflərini gücləndirməyə davam edir. Qaz kəmərləri də bu taktikaya xidmət edir".

Məhz bu durumda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas rolun sahibinə çevrilir. Digər tərəfdən nəzərə almaq lazımdır ki, ölkəmiz burada təkcə tədarükçü kimi yox, həm də Qazaxıstan və Türkmənistan qazının tranzit ölkəsi kimi çıxış etmək imkanları da əldə edib. Artıq Avropa İttifaqı hər iki Asiya ölkəsinə Avropaya qazı Azərbaycan vasitəsilə tədarük etməyi təklif edib. Avropa İttifaqının Büdcə və İnsan Resursları Komissiyasının üzvü Günter Ottinger bu ölkələrə Azərbaycanın qaz tranziti üçün infrastruktura malik olduğunu bildirib.

***Nahid SALAYEV***

# Lavrov Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyəti şərh edib



**Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı razılaşmalar kağız üzərində qalmamalıdır.**

"Trend"in məlumatına görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov serbiyalı həmkarı İvitsa Daçiçla keçirdiyi birgə mətbuat konfransında deyib.

Rusiyalı diplomat deyib ki, həm Bakı, həm İrəvan bu razılaşmaların kağız üzərində qalmamasında maraqlıdır:

"Biz burada mənim iştirakımla və sonradan ATƏT Minsk Qrupunun həmsədrlərinin və ATƏT-in hazırkı sədrinin nümayəndəsinin qoşulması ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü keçirdik. Azərbaycanın xarici işlər nazir Elmar Məmmədyarov bildirib ki, görüş zamanı 2016-cı ilin təklifləri müzakirə olunub. Mənim əlavə sözüm yoxdur. Bu təkliflərin məzmununa gəldikdə isə, həmsədr ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları möhkəmlənmiş yanaşmalar məcrasında hərəkət edir".

Görüş zamanı qeyd olunmuş humanitar tədbirlərə gəldikdə isə, S.Lavrov qeyd edib ki, onlar birgə bəyanatda dəqiq əks olunub:

"Bu tədbirlər tərəflərin xüsusən kənd təsərrüfatı işləri zamanı vəziyyətin sabitləşməsi üçün əlavə səylərini, qarşı tərəfdə əsirlikdə saxlanan şəxslərin yaxınları tərəfindən ziyarət olunmasına kömək göstərilməsini və insanlar arasında təmasları, xüsusilə KİV nümayəndələrinin səfərlərinə şərait yaradılmasını əhatə edir. Hesab edirəm ki, bu, faydalı razılaşmadır. Bakı və İrəvan bu razılaşmaların kağız üzərində qalmamasında maraqlıdır. Biz buna kömək edəcəyik".

# Moskvada son Qarabağ görüşünün əsl mənası - Ermənistan substantiv danışıqlar masasına gətirildi...

**Məlum olduğu kimi, aprelin 15-də Rusiyanın təşəbbüsü, həmsədrlərin və ATƏT sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Moskvada Azərbaycan və Ermənistan XİN başçılarının növbəti görüşü keçirilib. Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.**

Bundan əlavə, bu ilin 29 mart tarixində Vyanada baş tutmuş Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Danışıqlarla bağlı həmsədrlərin bəyanatında detallı məlumat verilməsə də, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mətbuata açıqlamasında bir sıra məqamlara aydınlıq gətirib, bəzi razılaşmalardan bəhs edib. Onun sözlərinə görə, Rusiya tərəfinin 2016-cı ildə təklif etdiyi plan əsasında müzakirə aparılıb: "Biz indiyədək irəliləyişə mane olan məsələləri konkret müzakirə etdik. Deyə bilmərəm ki, bu, tam irəliləyiş idi. Lakin Ermənistan tərəfi və mən bütünlükdə bəzi problemli məqamları daha hərtərəfli və dərindən anlaya bildik. Biz Rusiya tərəfinin 2016-cı ildə təklif etdiyi plan əsasında müzakirə apardıq. Əlbəttə, bu görüşdə bütün məsələləri həll edə bilmədik. Bugünkü görüşün xeyri bundan ibarətdir ki, hansı problemlərin olduğunu və hansıların həllinin gərəkliyini daha dərindən dərk etdik. Məsələn, Ermənistan status və təhlükəsizliklə bağlı məsələ qaldırır. Biz isə birinci növbədə Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması və məcburi köçkünlərin qayıdışı məsələsini qaldırırıq. Biz bu dörd məsələ ətrafında hərtərəfli müzakirə apardıq. Düşünürəm ki, bunu davam etdirməyə razılaşmışıq".

O da məlumdur ki, tərəflər bəzi üçüncü dərəcəli məsələlərdə razılığa gəliblər. Məsələn, jurnalistlərin qarşılıqlı səfərləri, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması. Ancaq bütün bunlardan vacibi tərəflərin danışıqları hansı plan üzrə aparmasıdır.

Elmar Məmmədyarovun qeyd etdiyi kimi, dörd məsələ ətrafında hərtərəfli müzakirələrin aparılması, bir növ, Ermənistanın substantiv danışıqlara məcbur edilməsinin göstəricisidir. Çünki qeyd olunan məsələlər substantiv danışıqların mahiyyətinə uyğundur və onları özündə ehtiva edir. Hansı ki, nəticəyə hesablanmış olan substantiv danışıqlar Azərbaycanın maraqlarına uyğundur və Ermənistan illər idi ki, belə danışıqlara heç cür başlamaq istəmirdi. Substantiv danışıqlar ilk növbədə ərazilərin işğaldan azad edilməsini və köçkünlərin geri qayıtmasını nəzərdə tutur. Tərəflər arasında danışıqların bu yöndə aparılması müsbət dinamika yarada bilər. Nəzərə almaq lazımdır ki, Ermənistanın separatçı qurumun danışıqlarda tərəf kimi iştirak təşəbbüsü fiaskoya uğradı.

Bütün bu deyilənlərlə yanaşı, maraqlıdır, Rusiya tərəfinin 2016-cı ildə təklif etdiyi planın mahiyyəti nədən ibarətdir? Bu nə plandır? Hesab etmək olarmı ki, Azərbaycan Ermənistanı substantiv danışıqlara getməyə vadar edə bildi? Bütün bunları ekspertlər necə şərh edirlər?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Elman Nəsirov bununla bağlı bir sıra məqamlara aydınlıq gətirdi:** "Əvvəla Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial və qətiyyətli mövqeyə malikdir. Bunu Ermənistan rəhbərliyi ilə aparılan danışıqlarda və ən yüksək beynəlxalq kürsülərdə də səsləndirib. Sonuncu Vyana görüşündə də cənab Prezidentin mövqeyi dəyişməz oldu. Yəni münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənistan hər dəfə separatçı qurumun danışıqlarda iştirakını istəyirdi. Prezident bu məsələdə də prinsipial mövqeyini ortaya qoydu. Nəticədə danışıqlar Azərbaycan və Ermənistan rəhbərləri arasında getdi. Eyni zamanda, hər iki ölkənin xarici işlər nazirləri danışıqlarda iştirak edir. Bu baxımdan Moskva görüşünə xüsusi maraq var idi. Çünki bu görüş Rusiya xarici işlər naziri Sergey Lavrovun təşəbbüsü ilə keçirilirdi. Təbii ki, Lavrovun Putindən aldığı təlimat əsasında bu görüş keçirildi. Elmar Məmmədyarovun verdiyi açıqlamadan bəlli oldu ki, 4 məsələ ətrafında çox ciddi və mürəkkəb danışıqlar aparılıb. Azərbaycan ərazilərin işğaldan azad olunması və köçkünlərin geri qaytarılması ilə bağlı təklif edib. Ermənistan tərəfi isə bunun qarşılığında status və təhlükəsizlik məsələlərini ön plana çəkib. Bu dörd məsələ ətrafında aparılan müzakirələrdə hər hansı bir razılaşmanın əldə olunması ilə bağlı məlumat yoxdur. Məlum olan odur ki, humanitar sahələrdə tərəflər arasında razılaşma var. Bu da icmalar və media arasında təmaslardan ibarətdir. Bir də girovlarla bağlı razılıq var".





***Elman Nəsirov:** "2016-cı ildə Rusiyanın təklif etdiyi plan, əslində, Kazan planının bir oxşarı kimi təqdim olunur"*

***Ramil Hüseynov:** "Moskva görüşünün nəticələri substantiv danışıqlarla bağlı müəyyən ümidlər yaradır"*



2016-cı ildə Rusiyanın təklif etdiyi plana gəldikdə isə, E.Nəsirov bunları dedi: "Məsələ ondadır ki, 2016-cı ilin aprel döyüşlərindən sonra, aprelin 7-8-də Rusiya Baş naziri Dmitri Medvedyev regiona səfər etdi. O zaman Rusiyanın təklif etdiyi plan, əslində, Kazan planının bir oxşarı kimi təqdim olunur. Çünki 2011-ci ildə münaqişənin həlli ilə bağlı Kazan planı vardı. Burada söhbət işğal olunmuş ərazilərin mərhələli şəkildə geri qaytarılmasından gedir. Yalnız sonrakı mərhələdə Dağlıq Qarabağın statusuna baxılması nəzərdə tutulur. İlk növbədə 2004-cü ildə irəli sürülmüş Praqa prosesinin məntiqi, 2007-ci ildə irəli sürülmüş Madrid və 2009-cu ilin dekabrında irəli sürülmüş Yenilənmiş Madrid prinsiplərinin ruhundan çıxış edərək münaqişənin həlli məsələləri nəzərdə tutulur. Bütün bunlar paket həll deyil. Bunlar mərhələli həlldir. Lakin bütün bunlarla bağlı Ermənistan konstruktiv mövqe ortaya qoymayıb. Bu da bəlli bir məsələdir. Bütövlükdə, Moskva görüşünü ona görə müsbət qiymətləndirmək lazımdır ki, hər halda, fundamental məsələlərlə bağlı razılaşma əldə edilməsə də, humanitar sahədə müəyyən irəliləyişlər əldə edilib. Bunu müsbət bir impuls kimi dəyərləndirmək lazımdır. Moskva görüşü göstərdi ki, Rusiya münaqişənin həllində əsas vasitəçi tərəf kimi özünü təsdiqləmək istəyir. Bu tendensiya da diqqətdən yayınmır".

**Vətəndaş və İnkişaf Partiyasının sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Moskva görüşünün nəticələri substantiv danışıqlarla bağlı müəyyən ümidlər yaradır:** "Çünki dörd məsələ ətrafında müzakirələrin aparılması bu qənaətə gəlməyə əsas verir. Ermənistanın sona qədər bunlara nə dərəcədə sadiq qalacağını demək çətindir. Çünki dəfələrlə bu ölkə danışıqları pozub. O baxımdan bundan sonra proseslərin hansı istiqamətdə inkişaf edəcəyini demək çətindir. Ancaq Moskva görüşü göstərdi ki, separatçı qurumun danışıqlarda iştirakı gündəmdə deyil. Danışıqlar konkret məsələlərlə bağlı Azərbaycanla Ermənistan arasında aparılmalıdır. Ermənistan pozuculuq siyasəti həyata keçirməsə, danışıqlarda müsbət nəticə əldə etmək olar. Hesab edirəm ki, substantiv danışıqların nəticə verməsi üçün həmsədrlər Ermənistana təzyiq etməlidirlər".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ prosesində üç yenilik - Rusiya fəallaşır, ümidlər artır, Ermənistanın öhdəliklərdən qaçmaq imkanları tükənir...

**Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Rusiyada baş tutan məlum görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə çözülə biləcəyinə dair ümidlər bir qədər artıb. Təbii ki, hər şey Ermənistanın bundan sonra üzərinə götürdüyü öhdəliklərə nə dərəcədə əməl etməsindən asılı olacaq.**

Bura nazirlərin son görüşündə əldə edilən razılıqlar da daxildir.

Xatırladaq ki, bu razılığa əsasən, tərəflər münaqişə zonasında, xüsusilə də kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olanlar üçün sabitlik yaradacaqlarını bildirib. İndiyə qədər isə cəbhəyani ərazilərdə Ermənistan silahlı qüvvələri bu xüsusda atəşkəsi pozmaqla ciddi problemlər yaradıb. Moskva görüşündə tərəflər həm də əsirlərlə ailələri arasında əlaqələr yaradılmasına şərait yaratmaq barədə razılığa gəlib. Bu xüsusda da Ermənistanın indiyə kimi ciddi problemlər yaratması heç kimə sirr deyil. Qeyd edilənlərlə yanaşı, nazirlər Moskva görüşhündə həm də xalqlar arasında əlaqələrin qurulması, o cümlədən media nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkil olunması üçün konkret iş görülməsi barədə istəklərini ifadə ediblər. Qarşıdakı günlər ərzində İrəvanın bu məsələlərdə üzərinə götürdüyü öhdəliklərə nə dərəcə sadiq qalacağı bəlli olacaq. Məhz bunlar həm də Ermənistanla danışıqların davam etdirilməsinin nə dərəcədə effektiv olacağını müəyyənləşdirəcək.

Yaranmış durumda Ermənistan hakimiyyəti başa düşür ki, bu dəfə öhdəliklərə əməl etməsə və nəticədə müharibə olsa, çox böyük itkilərə məruz qalacaqlar. Ermənistanın Milli və Beynəlxalq Araşdırmalar Mərkəzinin təhlilçisi Manvel Sarkisyan da bunu etiraf edir və bildirir ki, son razılaşma müsbət haldır: "Əks halda bunun sonu müharibədir və bu müharibə Ermənistana çox baha başa gələ bilər. Münaqişənin həll olunmaması isə regionun, xüsusilə Ermənistanın gələcəyini çox böyük sual altına qoyur". Rusiyanın "regnum.ru" portalı da məsələyə eyni prizmadan yanaşaraq yazır: "Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyanın Rusiya XİN başçısı Sergey Lavrovun qatıldığı görüşün nəticələrindən indi gözləntilər böyükdür. Aydın idi ki, münaqişə tərəfləri Dağlıq Qarabağ münaqişəsinin kəskin problemlərinə sadəcə növbəti dəfə yanaşmayıblar, ev çantalarında hansısa tədarükləri var idi.

Məmmədyarovun danışıqların yekunları üzrə heç vaxt olmadığı qədər yetərincə açıq bəyanatı dəyərləndirilsə, belə də olub:"Sergey Lavrov, mən və Zöhrab Mantsakanyan birinci növbədə üçtərəfli görüş keçirdik. Görüş səmərəli oldu. Biz indiyədək irəliləyişə mane olan məsələləri konkret müzakirə etdik. Deyə bilmərəm ki, bu tam irəliləyiş idi. Lakin Ermənistan tərəfi və mən bütünlükdə bəzi problemli məqamları daha hərtərəfli və dərindən anlaya bildik. Biz Rusiya tərəfinin 2016-cı ildə təklif etdiyi plan əsasında müzakirə apardıq. Əlbəttə, bu görüşdə bütün məsələləri həll edə bilmədik. Görüşün xeyri bundan ibarətdir ki, hansı problemlərin olduğunu və hansıların həllinin gərəkdiyini daha dərindən dərk etdik. Məsələn, Ermənistan status və təhlükəsizliklə bağlı məsələ qaldırır. Biz isə birinci növbədə Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması və məcburi köçkünlərin qayıdışı məsələsini qaldırırıq. Biz bu dörd məsələ ətrafında hərtərəfli müzakirə apardıq. Düşünürəm ki, bunu davam etdirməyə razılaşmışıq. Görüşdə müxtəlif fikirlər səsləndi. Bu təkliflərin nə olduğunu indi söyləmək istəmirəm. Bunlar Rusiya tərəfinin, həmsədrlərin, Azərbaycan və Ermənsitanın təklifləri idi. Bu yöndə işi davam etdiririk".

Yada salaq ki, Moskva 2016-cı ildə sonradan "Lavrov planı" adlandırıldığı və Dağlıq Qarabağın uyğun statusunun müəyyən edilməsilə Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsini nəzərdə tutan ssenari təklif edib. Görünür, Smolensk meydanının analitik düşüncəsi o çağdan bəri bir addım da irəliləməyib, amma Məmmədyarova görə, danışıqlarda "müxtəlif təklif və rəylər səslənib".

Bununla belə, ATƏT MQ həmsədrlərinin yekun bəyanatı bu fonda müəyyən ayrıntıları irəli sürür. Məlum olur ki, münaqişə edən tərəflər "münaqişə zonasında durumun sonrakı, özəlliklə kənd təsərrüfatı işlərinin gedişində sabitləşməsinə maraq göstərib", onlar "habelə ailələrin tərəflərin uyğun saxlama mərkəzlərində göz altında olan qohumları ilə görüşünə imkan vermək üçün qarşılıqlı əsasda tədbir görməyə razılaşıb" və "adamlar arasında təmasların qurulması üçün, o cümlədən KİV təmsilçilərinin qarşılıqlı səfərləri vasitəsilə konkret işə başlamaq razılığını ifadə ediblər".

Bəs sonra? ATƏT MQ qeyd edir ki, "görüş iştirakçıları ən yaxın zamanda təmasları davam etdirməyə razılaşıblar". Moskvada nə baş verib ki? Məmmədyarovun reaksiyasına əsasən, çox ehtimal ki, masa üzərinə Bakı və İrəvanın mövqeyinin nəzərdə tutan "humanitar" deyilən silsilədən çoxlu konkret təkliflər qoyulub. Yalnız bu yöndə irəliləyiş Moskva-Bakı-İrəvan üçbucağında görüşün baş tutacağına zəmanət verir. Bu yöndə hiss olunan addımlar olmasa, Rusiya prezidenti Vladimir Putinin də Qarabağ dialoquna qatılmağının və qabaqkı kimi bəlli köhnə formatlarda keçiriləcək "diplomatik çalxalanma"nın mənası yoxdur.

Bu fonda demək olar ki, Ermənistan və Azərbaycan XİN başçılarının Moskva görüşü tərəflərə indilikdə mühüm irəliləyiş gətirməyib, amma yeni ümidlər yaranıb". Portal daha sonra yazır ki, yeni ümidlər özünü doğrultmasa, Qarabağ uğrunda yeni savaşın başlanmasını gözləmək olar. Amma Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirir ki, həm Bakı, həm də İrəvan Dağlıq Qarabağla bağlı son razılaşmaların kağız üzərində qalmamasında maraqlıdır. Nazir Moskva görüşündə tərəflər arasında humanitar sferada tədbirlər haqda əldə edilmiş razılaşma barədə də danışıb. Bildirib ki, həmin tədbirlər görüşün yekunu olaraq qəbul edilən bəyanatda əksini tapıb: "Mən bunları çox faydalı razılaşmalar hesab edirəm. Bəli, mən belə şərhlər də oxumuşam ki, bu cür məsələlər, xüsusən də humanitar sferada, əvvəllər də razılaşdırılıb, amma həmişə yerinə yetirilməyib. Bu doğrudur. Lakin Moskvada baş tutmuş təmasların yekunu əsasında məndə belə əsas yaranıb ki, hazırda işlərin getdiyinə dair atmosferi hiss edim. Və məndə belə əsas var ki, Bakı və İrəvan bu dəfə həmin razılaşmaların kağız üzərində qalmamasında maraqlıdır. Biz buna kömək edəcəyik". Ekspertlər isə bildirir ki, razılıqların kağız üzərində qalmaması üçün Moskvanın İrəvana təzyiqlərini artırması vacibdir. Əks halda, yuxarıda qeyd olunduğu kimi, bölgədə Moskvanın marağında olmadığı savaşın başlanması qaçılmaz olacaq.

Erməni mediası isə yazır ki, əslində, Moskva görüşünün təşkili ilə Rusiya yenidən Qarabağ münaqişəsinin həllində təşəbbüsü ələ almaq niyyətini ortaya qoyub. Amma bu o vaxtda baş verir ki, Moskva ilə İrəvanın münasibətləri heç də əvvəlki kimi rəvan deyil. "İravnuk" qəzeti qeyd edir ki, indiki vəziyyət daha çox Azərbaycanın maraqlarına uyğundur: "Çünki Bakı ilə Moskvanın əməkdaşlığı son dövrlərdə xeyli intensivləşib. Digər tərəfdən, Rusiya ilə yaxınlaşan Türkiyənin də prosesə təsiri nəzərə alınmalıdır. Türkiyə daim Qarabağ məsələsində Azərbaycanın mövqeyini dəstəkləyib. Bunu hətta Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin İrəvanda keçirilən 52-ci iclasında iştirak edən komitənin sədri, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) deputatı Mətin Gündoğdu Ermənistanın mərkəzində yenidən açıq bəyan etdi. Bildirdi ki, Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşması və sərhədlərin açılması məsələsini Dağlıq Qarabağ probleminin həlli kontekstində nəzərdən keçirmək lazımdır: "Dağlıq Qarabağ Azərbaycanın ərazisidir və münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmadan Ermənistanla Türkiyə arasında münasibətlərin yoluna qoyulmasından söhbət gedə bilməz. Azərbaycan həmişə Türkiyə üçün önəmli müttəfiq olub - biz iki dövlət, bir millətik. Əgər Dağlıq Qarabağ münaqişəsi həll olunarsa, onda bu, bütün regiona rifah gətirəcək". Bu yanaşma, əslində Türkiyənin rəsmi mövqeyidir. Ona görə də Türkiyənin Rusiya vasitəsilə Qarabağ məsələsinə müdaxiləsi İrəvan üçün müsbət heç ən vəd etmir. Bu səbəbdən hadisələrin Ermənistan üçün ən pis ssenarilərinə belə hazır olmaqda fayda var".

Ümumiyyətlə, Kremlin Ankara ilə regiondakı konfliktli məsələlərdə əməkdaşlıq və anlaşma əldə etməyə başlaması və Suriya timsalında bu əməkdaşlığın artıq uğurlu nəticələr verməsi ermənilari getdikcə daha çox narahat etməkdədir. Bu xüsusda "1 in.am" saytı yazır: "Hadisələrin gedişi Rusiya-Türkiyə ittifaqının daha da möhkəmlənəcəyini göstərir. Xüsusən də S-400 havadan müdafiə sistemləri ətrafında yaranan qalmaqal bunu şərtləndirən mühüm amilə çevrilib. Suriya nümunəsində rus-türk əməkdaşlığının nəyə gətirdiyini görmək mümkündür. Məsələ ondadır ki, konfliktlərin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllində də Türkiyə Suriyadakı kimi Rusiyanın yüngül əli ilə "nizamlama" prosesinə cəlb oluna bilər. Təsadüfi deyil ki, Rusiya ilə Türkiyə yaxınlaşdıqdan sonra fikirlər səslənir ki, Qarabağ məsələsinin Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan formatında müzakirəsi mümkündür. Elə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olan Rusiya da Ankaranın Qarabağa dair danışıqlar prosesində daha fəal iştirakının əleyhinə deyil. Bütün bunlar düşünmək üçün belə bir zəmin yaradır ki, rus-türk qarşılıqlı yaxınlaşmasının hədəfləri sırasında Qarabağ məsələsi də ola bilər".

Proseslərin qeyd edilən istiqamətdə inkişafı indiki şəraitdə Azərbaycanın maraqlarına tam uyğundur. Ermənistanın isə hadisələrin bu səpkidə inkişafının qarşısını almağa hansısa ciddi imkanı yoxdur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Aqrar məhsullarımızın xarici satış bazarlarına tələbatı inanılmaz sürətlə artır...

**Qeyri-neft sektorunun inkişafına göstərilən xüsusi diqqət bu sahədə həm istehsal, həm də ixrac həcminin artması ilə müşayiət edilməkdədir. Qeyd olunan səpkidə, xüsusilə son dövrlərdə aqrar məhsulların icracında dinamik artım qeydə alınır. Hətta bəzən ixracın həcmi bəzi məhsulların yerli bazarlarda müəyyən qədər çatışmazlığına gətirib çıxarır. Hər halda kartof, soğan və kələm kimi aqrar məhsullarla bağlı yaşanan son proseslər də bunu əyani surətdə təsdiqlədi.**




*Rusiya bazarları uğrunda rəqabət kəskinləşir, yeni bazarlara çıxış isə zərurətə çevrilir*

Məhz bundan sonra hökumət müvafiq tədbirlərə əl ataraq, sözügedən məhsulların qiymətinin sabitləşməsəni nail oldu.

Xatırladaq ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə bu il aprelin 30-dək ölkədən 1 kiloqram təzə və ya soyudulmuş kartofun ixracına görə 1 ABŞ dolları, mayın 31-dək isə ölkədən 1 kiloqram soğan, ağbaş, qırmızıbaş kələmin ixracına 2 ABŞ dolları gömrük rüsumu tətbiq edilib. Bundan başqa, soğanın idxalına tətbiq olunan spesifik rüsum həmin müddətədək ləğv edilib.

İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin birgə məlumatında bildirilir ki, atılmış bu addım daxili bazarda qiymət sabitliyinin təmin olunmasına, ölkə əhalisinin bu məhsullara olan tələbatının daha dolğun ödənilməsinə xidmət edir. Artıq görülən tədbirlər nəticəsində bu məhsulların ucuzlaşması qeydə alınır. İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin birgə məlumatında da bildirilir ki, aprelin ikinci ongünlüyündən başlayaraq qiymətlərdə ucuzlaşma müşahidə edilir. Amma bunlarla yanaşı, diqqət mərkəzində yer alan əsas məqamlardan biri aqrar sahə üzrə ixrac həcminin yüsək həddə saxlanmasıdır. Qeyd olunan məqsədlə yeni bazarların axtarışı istiqamətində də mühüm addımlar atılır. Məsələn, aqrar sahədə ən çox ixrac edilən və böyük həcmdə gəlir gətirən pomidor məhsulları üçün yeni bazarların tapılması artıq zəruri şərt kimi çıxış edir. Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Bəşir Quliyev bununla bağlı bildirir: "Azərbaycanda istehsal olunan pomidorlar əsasən Rusiyaya ixrac olunur. Rusiya son illərdə pomidor istehsalını artırdığı üçün Azərbaycandan Rusiyaya pomidor tədarükü gələcəkdə azala bilər". Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Elşən Bağırzadə isə bildirir ki, son illərdə dünyada baş verən əsas tendensiyalardan biri kənd təsərrüfatı məhsullarının istehsalının iqlim şəraitindən, torpağın keyfiyyətindən və s.-dən asılı olmamasıdır: "İstixanalardan, müvafiq texnologiyalardan istifadə edərək dünyanın hər yerində kənd təsərrüfatı məhsullarını istehsal etmək mümkündür. Artıq eyni sort pomidorları dünyanın hər yerində eyni keyfiyyətdə istehsal etmək mümkündür. Məsələn, Hollandiyada binaların üstündə belə pomidor, xiyar və digər məhsullar istehsal olunur".

O bildirib ki, Rusiya da idxaldan asılılığı azaltmaq üçün bir sıra istiqamətdə tədbirlər görür: "Bunlardan biri də kənd təsərrüfatı məhsullarının istehsalıdır. Rusiyada kütləvi şəkildə kənd təsərrüfatı məhsulları istehsal edilirsə, bu, qonşu ölkələrdən məhsulların idxalının azalmasına gətirib çıxaracaq. Azərbaycan da bu çətinliyi digər ölkələrin hesabına aradan qaldıra bilər. Məsələn, Qazaxıstan bu istiqamətdə Azərbaycan üçün böyük bazar ola bilər. Artıq Xəzər dənizi üzərindən daşınmalarımız sürətlənir, limanlar inşa edilir. Gələcəkdə ucuz su nəqliyyatından istifadə edərək Qazaxıstana kənd təsərrüfatı məhsulları, o cümlədən pomidor ixrac edə bilərik".

Mütəxəssisin sözlərinə görə, eyni zamanda, mövsümi olaraq ayrı-ayrı bazarlarda kənd təsərrüfatı məhsullarının tələb-təklifində dəyişmələr olur: "Azərbaycan istehsalçıları bunları izləməli və bazarlarda məhsul qıtlığı olduğu zaman həmin yerlərə bu məhsulları ixrac etməyə hazır olmalıdır. Bütövlükdə kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətində bu cür qeyri-müəyyənliklər var və davam edəcək. Çünki kənd təsərrüfatı məhsulu sənaye məhsulu deyil və artıq hər ölkədə istehsal edilə bilir. Bu baxımdan Azərbaycan ixracı təkcə kənd təsərrüfatı məhsullarına bağlı olmamalıdır. Belə problemlərin qarşısını almaq, gələcəkdə dayanıqlı ixrac imkanlarını formalaşdırmaq üçün sənaye məhsulları üzrə ixtisaslaşıb, bu məhsulların ixracını həyata keçirməliyik. Kənd təsərrüfatı məhsulları ilə bağlı bütün ölkələr üçün bu təhlükələr var. Ona görə də kənd təsərrüfatı istehsalçıları kifayət qədər çevik olmalıdırlar. Onların çevik idarəetmə sistemi olmalıdır ki, bazarlarda baş verən dəyişikliklərə dərhal reaksiya verə bilsinlər".

Digər ekspertlər isə diqqəti buna yönəldir ki, Rusiyada daxili istehsal artmaqla yanaşı, bu ölkədə rəqiblər də çoxalır. Məhz bu səbəbdən artıq MDB-nin digər ölkələrində yeni bazar axtarışını genişləndirmək lazımdır. Bununla yanaşı, Avropa və digər bazarlara, o cümlədən ərəb ölkələrinə də çıxış imkanları araşdırılmalıdır.

Qeyd edək ki, hazırda Avropada Azərbaycanın aqrar məhsullarına tələb yüksəkdir. Ən azı o baxımdan ki, Azərbaycan məhsulları orqanikdir və belə məhsulların Avropada alıcısı kifayət qədərdir. MDB ölkələri, məsələn, Qazaxıstan, digər Orta Asiya ölkələri üçün də Azərbaycan mühüm ixracatçılardan biri qismində çıxış edə bilər.

***Tahir TAĞIYEV***

# Kartof-kələm qiymətləri sabitləşdimi - nazirliyin təqdimatları ilə bazarlardakı vəziyyət uyğun gəlmir...

**Məlum olduğu kimi, mart ayının sonunda və aprel ayının əvvəlində kartof, soğan və kələmin qiymətində ciddi artım müşahidə olundu. Buna müxtəlif faktorların səbəb olduğu göstərildi.**



*”Bazarın öyrənilməsi və fermerlərin maarifləndirilməsi işi ilə KTN ciddi şəkildə məşğul olmalıdır”*

***Qadir Bayramov:** ”Bizim başqa zəif nöqtələrimizdən biri də fermerlərin...”*

Ancaq biz ötən yazılarımızdan birində konkret faktlar əsasında üzə çıxardıq ki, Azərbaycanda istehsalı mümkün olan bu adda kənd təsərrüfatı məhsullarının qiymətinin qaxmasında səbəblərdən ən başlıcası həmin sahəyə məsul olan Kənd Təsərrüfatı Nazirliyinin planlama və proqnozlaşma işinin zəif olmasıdır. Çünki ötən il bazarda sarımsaq və noxud qıt və baha qiymətə satılırdı. Bunu görən kəndli və fermerlər kütləvi şəkildə həmin məhsulları əkməyə başladılar. Həmin adda məhsuldan o qədər yetişdirilib ki, kəndlilər noxud və sarımsağı öz maya dəyəri qiymətinə belə sata bilmirlər. Belə getsə, gələn mövsüm üçün kəndlilərin çoxu bu gün qiyməti bahalaşan məhsulları əkib becərməkdə maraqlı olacaq ki, bu da başqa məhsulların azalması və qiymətinin kəskin artması ilə nəticələnə bilər. Bu xüsusda apardığımız araşdırmada müəyyən etdik ki, KTN bizim nəzərdə tutduğumuz işlə yeni-yeni məşğul olmağa başlayıb. Kənd Təsərrüfatı Nazirliyi adından sevincək halda belə bir bəyanat yayıldı ki, bazarda kartof, soğan və kələmin qiyməti enib. Təqdim edilən qiymətlər, əslində, heç bazardakı real mənzərəni də əks etdirmirdi. Ən maraqlısı isə budur ki, nazirlik yaxın vaxtda deyilən məhsulların qiymətinin ucuzlaşacağını anons edib. Bunu da iki faktorla izah edirlər - kartof, soğan, kələmin ixracına müddəti rüsumun tətbiqi və soğan idxalına spesifik rüsumun may ayının 31-dək ləğv edilməsi, həmçinin, mövsümlə əlaqədar olaraq yeni məhsulların bazara daxil olcağı. Göründüyü kimi, bu faktorların heç birinin Kənd Təsərrüfatı Nazirliyi ilə əlaqəsi yoxdur. Birinci qanunvericilik təşəbbüsüdür, ikincisi isə təbii prosesdir. Zəruri kənd təsərrüfatı məhsullarının qiymətinin stabilləşməsi istiqamətində görülən işlərdə KTN-in fəaliyyətini qənaətbəxş saymaq olarmı?

**Kənd təsərrüfatı mütəxəssisi Qadir Bayramov "Bakı-Xəbər"ə bildirdi ki, bu istiqamətdə KTN-in üzərinə müəyyən məsuliyyət düşür:** "Düzdür, razıyıq ki, bazar iqtisadiyyatı şəraitində qiymətləri hər hansı bir qurum müəyyən edə bilmir. Bu, tələb və təklif əsasında bazarın özü tərəfindən müəyyənləşir. O ki, qaldı bazarın öyrənilməsi və kəndlilərin maarifləndirilməsinə, bu istiqamətdə iş zəifdir. Məhz bunun nəticəsidir ki, bir il bir kənd təsərrüfatı məhsulu baha olur, gələn il başqası. Çünki hamı kütləvi şəkildə bahalaşandan əkməyə meyllənir. Bazarın öyrənilməsi və fermerlərin maarifləndirilməsi işi ilə KTN ciddi şəkildə məşğul olmalıdır. İkincisi isə çalışmaq lazımdır ki, ölkənin daxili bazarını yerli məhsullarla təmin edə bilək. Buna görə ixracat rüsumları elə müəyyən edilməlidir ki, kəndli məhsulunu daxili bazarda satmağa maraqlı olsun. Çünki bu tənzimlənməyəndə biz fermerləri də qınaya bilmərik. Xaric sərf edirsə, aparıb məhsulunu orada baha qiymətə satmaqda maraqlı olacaq. Bizim başqa zəif nöqtələrimizdən biri də fermerlərin təşkilatlanmasının olmamasıdır. Yaxşı olardı ki, KTN bu işlə də məşğul olsun. Belə təşkilatlanma olsa, onlar müəyyən informasiya mübadiləsində ola bilərlər.

Məqsədəuyğundur ki, deyilən istiqamətdə fəaliyyətlərin təşkilinə ciddi fikir verilsin. Yoxsa, mövsümlə əlaqədar olaraq yeni məhsul çıxanda qiymət düşməsi təbii bir qanunauyğunluqdur. Bu üsulla tənzimlənmə həyata keçirilə bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

# Təhsil Nazirliyi ənənəvi dərslik tənqidçilərini fakt qarşısında qoydu - bəzi sinif dərsliklərinin geniş ictimai müzakirəsi başladı...

**Son dövrlər dərsliklərin məzmun və keyfiyyəti, eləcə də həcmi ən çox müzakirə edilən, barəsində tənqidi fikirlər, rəylər bildirilən məsələlərdən biridir. Bildiyimiz kimi, şagirdlərin istifadə etdikləri dərsliklərin keyfiyyətinin yüksəldilməsi, məzmununun təkmilləşdirilməsi sahəsində mövcud problemlərin aradan qaldırılması üçün Təhsil Nazirliyi addımlar atır.**



***Rafiq İsmayılov:** "Nazirlik tərəfindən dərsliklərin ictimai müzakirəyə çıxarılması əhəmiyyətlidir və bu öz bəhrəsini verəcək"*

***Sevinc Nuruqızı:** "Bu həm də dərsliklər ətrafında yaranan söz-söhbətlərə, fikir ayrılıqlarına son qoyacaq"*

2018-2019-cu tədris ilində istifadəyə verilən dərsliklərin bir çoxunda əvvəlki tədris illərində istifadə edilən dərsliklərdə müşahidə edilən nöqsanların xeyli hissəsi aradan qaldırılsa da, mütəxəssislər hesab edirlər ki, yenə də qüsurlar var.

Təhsil Nazirliyi bu problemin həlli üçün yeni bir addım atıb. Belə ki, nazirlikdə dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsinə başlanıb.

Qeyd edilənə görə, 2019-2020-ci tədris ilinə ölkənin dövlət ümumtəhsil müəssisələrinin I sinifləri üçün yeni hazırlanmış, IV və VIII sinifləri üçün isə təkmilləşdirilmiş dərslik və müəllim üçün metodiki vəsaitlərə dair ictimai rəyin öyrənilməsi prosesinə start verilib. Bu məqsədlə dərslik və müəllim üçün metodiki vəsaitlərin layihələri www.trims.edu.az saytının "İctimai müzakirədə olanlar" bölməsində yerləşdirilib. Yaxın müddətdə bütün layihələrin sayta yerləşdirilməsi başa çatacaq.

Artıq ictimaiyyət nümayəndələri, mütəxəssislər mövcud sayta daxil olaraq qeyd edilən bölmədə yerləşdirilmiş layihələrin məzmunu ilə tanış olmaq, eyni zamanda, xüsusi ayrılmış sahədə irad və təklifləri yazmaq imkanı əldə edirlər.

Təhsil Nazirliyindən bildirilir ki, nazirlik elm adamlarını, təhsil işçilərini, valideynləri, aidiyyəti dövlət qurumlarını, müxtəlif ictimai birlikləri və bütün maraqlı tərəfləri müzakirəyə çıxarılmış dərslik komplektlərinin layihələrinə dair rəy, irad və təkliflərini bildirməyə dəvət edir.

**Dərslik üzrə mütəxəssis Rafiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, nazirliyin bu addımı artıq söz-söhbətlərə, fikir ayrılıqlarına son qoyacaq.** O qeyd etdi ki, IV və VIII siniflər üçün təkmilləşdirilmiş dərsliklərin hazırlanması adi prosesdir. "Dərsliklər 4 il müddətinə buraxılır və bu 4 il ərzində pedaqoji ictimaiyyətdən, valideynlərdən gələn rəylər, iradlar yığılır və növbəti nəşr zamanı bu rəylər, qeydlər nəzərə alınır. O ki, qaldı I sinif üçün dərsliklərin hazırlanmasına, burada dərsliklərin hazırlanması əvvəlkilərdən bir qədər fərqlidir. Yəni bu dərsliklər Təhsil Nazirliyinin öz təşəbbüsü və sifarişi əsasında hazırlanır. Bu dərsliklərə daha konseptual yanaşma tətbiq olunur. Burada ayrı-ayrı nəşriyyatların həll edə bilməyəcəyi bəzi məqamlar öz həllini tapır. Bu işdə çoxmərhələli müəllif seçimi həyata keçirilir. Daha sonra dərsliklərin konsepsiyası üzərində iş gedir və həmin müəlliflərin iştirakı ilə dərslik hazırlanır. Dərsliklər bir il sınaqdan keçirilir. Bildiyim qədər, bu proses daha geniş miqyasda keçiriləcək və dərsliklər ictimaiyyət tərəfindən müsbət qəbul ediləcəksə, kütləvi şəkildə məktəblərə paylanacaq. Nazirlik tərəfindən dərsliklərin ictimai müzakirəyə çıxarılması əhəmiyyətlidir və bu öz bəhrəsini verəcək" - deyə R.İsmayılov bildirdi.

O, həmçinin, vurğuladı ki, növbəti tədris ilindən başlayaraq II sinif dərslikləri ilə də bağlı yeni proses başalayacaq. Ekspert dedi ki, hələlik Azərbaycan dili və riyaziyyat dərslikləri hazırlanaraq sınağa buraxılacaq, bu vəsaitlər özünü doğrultsa və ictimai müzakirədə müsbət rəy qazansa, digər dərsliklərin hazırlanması da baş verəcək.

**"Təhsil" nəşriyyatının uşaq ədəbiyyatı şöbəsinin müdiri, yazıçı Sevinc Nuruqızı da hesab edir ki, nazirlik tərəfindən I, IV və VIII siniflər üçün hazırlanan dərs vəsaitlərinin ictimai müzakirəyə çıxarılması faydasız olmayacaq:** "Bilirsiniz ki, son zamanlar nəşr edilərək şagirdlərin istifadəsinə verilən müxtəlif dərsliklər ətrafında söz-söhbətlər dolaşır, mütəmadi olaraq bu vəsaitlər müzakirə edilir. Yəni bu proses dərsliklər nəşr edildikdən sonra baş verir. Təhsil Nazirliyinin növbəti tədris ili üçün hazırlanan dərs vəsaitlərini ictimai müzakirəyə çıxarması çox müsbət haldır. Bu həm də dərsliklər ətrafında yaranan söz-söhbətlərə, fikir ayrılıqlarına son qoyacaq. İstənilən şəxs sayta daxil olub vəsaitlərlə bağlı öz fikrini bildirəcək".

***İradə SARIYEVA***

# Bir neçə nazirliyin Bakıdakı körpələr evlərində aşkarladığı nöqsanlar necə qarşılandı?...

**Azərbaycanda körpələr evləri və uşaq sığınacaq mərkəzində nöqsanlar aşkar olunub. Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın tapşırığı əsasında Təhsil, Səhiyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı Şəhər İcra Hakimiyyətinin əməkdaşlarından ibarət monitorinq qrupu tərəfindən 1 saylı körpələr evi, Azərbaycan Uşaqlar Birliyi QHT-nin Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzində, 60 saylı körpələr evi - uşaq bağçasında monitorinqlər keçirilib.**



***1 saylı körpələr evi - Simuzər Topçubaşova:** "Uşaqların saxlanması, qidalanması ilə bağlı hər hansı bir problem yaşanmır"*

***60 saylı körpələr evi - Alidə:** "Bu mövzu ilə bağlı danışmaq istəmirəm"*

***Aytəkin Kamranqızı:** "...əvvəllər bu sahədə ciddi problemlər var idi"*

Keçirilən monitorinqlə bağlı yayılan hesabatda qeyd olunur ki, körpələr evləri və uşaq sığınacaq mərkəzində bir sıra nöqsanlar aşkar olunub.

Məlumatda qeyd olunur ki, monitorinq qrupu tərəfindən siyahı üzrə müəyyən edilmiş dövlət uşaq müəssisələrinə baxış zamanı uşaqların saxlanması, tərbiyəsi, qidalanması vəziyyəti, onların inteqrasiyası və reabilitasiyası, həmçinin, müəssisənin mövcud vəziyyəti qiymətləndirilib, aşkar edilən nöqsanlar, eləcə də müəssisələrin inkişafı ilə bağlı tövsiyələr protokollaşdırılıb.

Məlumat üçün bildirək ki, əvvəllər də bəzi körpələr evi, eyni zamanda, uşaq bağçalarında uşaqların saxlanması, qidalanması və digər məsələlərlə bağlı nöqsanlar aşkar olunub. Bu sahədə aparılan işlərə rəğmən, hələ də uşaq evlərində körpələrə lazımi dərəcədə nəvaziş göstərilmir. Halbuki, dövlət tərəfindən uşaq evlərində olan uşaqlara qayğı göstərilməsi, onların düzgün qidalanması, reabilatasiyası ilə bağlı hər bir şərait yaradılıb. Lakin bəzi uşaq evi rəhbərləri, bağça müdirələri dövlətin uşaqlara göstərdiyi eyni münasibəti sərgiləmir.

Dövlət qurumlarının körpələr evləri və uşaq sığınacaq mərkəzində apardıqları monitorinqlə bağlı adıçəkilən müəssisələrlə əlaqə saxladıq.

1 saylı Körpələr evinin baş həkimi əvəzi Simuzər Topçubaşova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, uşaqların saxlanması, qidalanması ilə bağlı hər hansı bir problem yaşanmır: "Uşaqlar yüksək səviyyədə qidalanır. İşçilər körpələrə qayğı və nəvazişlə yanaşırlar".

60 saylı körpələr evinin Alidə adlı əməkdaşı keçirilən monitorinq və çalışdığı müəssisədə uşaqlara necə münasibət bəslənilməsinə münasibət bildirmək istəmədi.

**Sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində bildirdi ki, bu gün bəzi körpələr evlərində saxlanan uşaqlara lazımi səviyyədə qayğı göstərilmir: "Bəzi körpələr, uşaq evləri, uşaq bağçalarında uşaqların təminatı yüksək səviyyədədir.** O uşaqlara maddi təminatla yanaşı, valideyn qayğısını hiss etdirmək lazımdır. Düzdür, heç bir tərbiyəçi uşağa bu hissi yaşada bilməz. Ancaq onlara adi xoş söz söyləmək, başlarına sığal çəkmək olar. Təəssüf ki, ayrı-ayrı uşaq evlərində olan körpələrlə sərt davranırlar".

Uşaqların qidalanması, onların reabilatasiyasına gəlincə, həmsöhbətimiz qeyd etdi ki, əvvəllər bu sahədə ciddi problemlər var idi. Ancaq son illər görülən işlər sayəsində uşaqların qidalanması ilə bağlı vəziyyət müsbətə doğri dəyişib.

***Günel CƏLİLOVA***

**Xəstəliklərin artdığı bir dövrdə dərman qiymətlərinin müxtəlif olması əhalinin güzəranına mənfi təsir edir. Digər tərəfdən də dərmanların keyfiyyəti ilə bağlı ortaya çıxan problemlər əlavə çətinliklər yaradır. Görürsən ki, həkim xəstəyə hansısa dərmanın alınması ilə bağlı resept yazır.**

***Rasif Bağırov:** "Eyni tərkibli dərmanlar müxtəlif ölkələrdə istehsal olunduğu üçün, fərqli qiymətə satılır"*

***Eyyub Hüseynov:** "Problem ondadır ki, dərmanın tərkibinə lazım olan vacib komponentlər qatılmır"*

# Eyni dərmanı Bakıdakı məşhur "Alman apteki"ndən və başqa apteklərdən alsaq... qiymətlərdə böyük fərqin sirri...

Ancaq xəstə həmin dərmanı alarkən qiymətlər arasında kəskin fərqin olduğunu görür. Yəni dərmanın tərkibi və göstəriciləri eyni olsa da, qiymətlər arasında fərq dəfələrlə ölçülür.

Bir sıra hallarda, alıcı dərmanların daha ucuz qiymətə satıldığı aptekdən onu alır. Bu da alıcıların həm vaxtını aparır, həm də əsəblərini tarıma çəkir. Maraqlı olan və sual doğuran məqam odur ki, eyni ada, tərkibə, komponentlərə malik olan dərmanların qiymətində niyə böyük fərq var? Məsələn, "Valerian ekstrakt" adlı dərman yerli apteklərdə 5 manat 20 qəpiyə satıldığı halda, həmin dərmanın Bakıdakı "Alman apteki"ndə qiyməti 22 manatdan aşağı deyil. Göründüyü kimi, ortadakı qiymət fərqi 4 dəfədən böyükdür. Bununla yanaşı, baxırsan ki, həm ucuz, həm də baha satılan dərmanın tərkibi eyni göstəricilərə malikdir, amma fərqli keyfiyyətə malikdirlər. Yəni baha satılan dərman daha effektlidir. Keyfiyyət fərqlidirsə, o zaman dərmanın eyni tərkibə malik olması nə dərəcədə həqiqəti əks etdirir?

Belə iddialar var ki, müəyyən işbazlar xaricdən dərman idxal edərkən oradakı istehsalçılarla "sövdələşirlər". Yəni dərmanın üzərində göstərilən komponentlər, əslində, lazım olan səviyyədə onun tərkibinə daxil edilmir. Daha doğrusu, onların dozası azaldılır və həmin dərmanlar ucuz satılır. Nəticədə həmin dərmanlardan istifadə yaxşı səmərə vermir. Beləcə, insanlar aldadılır. Bu səbəbdən müxtəlif qiymətə satılan dərmanların keyfiyyət göstəriciləri fərqlidir.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edirlər? Eyni tərkibə malik olan dərmanlar niyə bahadır? Dərmanın tərkibindəki komponentlərin azaldılması ilə bağlı iddialar nə dərəcədə realdır?

**Məsələyə münasibət bildirən tanınmış həkim Rasif Bağırovun fikrincə, eyni ada malik olan dərmanların müxtəlif qiymətə satılmasının müxtəlif səbəbləri var:** "Məsələ ondadır ki, eyni adda dərmanlar müxtəlif ölkələrdən Azərbaycana gətirilir. Böyük Britaniyadan, Bolqarıstan və Türkiyədən də dərman gətirilir. Məsafə, dərmanın hazırlanması zamanı proses qiymətlərə təsir göstərir. Eyni tərkibli dərmanlar müxtəlif ölkələrdə istehsal olunduğu üçün, fərqli qiymətə satılır. Avropada istehsal olunan dərman Orta Asiya istehsalından 20 dəfə bahadır. Avropada dərmanlar yüksək texnologiyalarla hazırlanır və keyfiyyətli olur. Bunun üçün də baha qiymətə satılır. Elə dərmanlar var ki, onlar Rusiyada istehsal olunur. Digər tərəfdən, hər ölkənin kateqoriyasına uyğun olaraq dərmanları sənədləşdirib verirlər. Düşünmürəm ki, xaricdə dərmanların tərkibini azaltmaq mümkün olsun. Çünki dərmanların komponenti var. Lazım olandan artıq və ya əskik komponent ora daxil etmək olmaz".



**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə hesab edir ki, dərmanların tərkibinə müdaxilənin edilməsi ilə bağlı iddialarda həqiqət payı var:** "Vaxtilə bu təşkilatı yaratmazdan 22 il əvvəl bizneslə məşğul olmuşam. O zaman belə halların şahidi oldum. İndinin özündə də belə hallar var və bunu danmaq olmaz. Eyni görkəmdə, eyni formada məhsul istehsal edilir, amma tərkibi fərqli olur. Dərmanlarla bağlı belə halların yaşanması ehtimalı böyükdür. Çünki ortadakı keyfiyyət fərqi bu qənaətə gəlməyə əsas verir. Problem ondadır ki, dərmanın tərkibinə lazım olan vacib komponentlər qatılmır. Yaxud da onların miqdarı azaldılır. Nəticədə dərmanların keyfiyyəti aşağı düşür. Bu da, öz növbəsində, bazarda haqsız rəqabətə yol açır. Bundan insanlar əziyyət çəkirlər. Ona görə də bu işlərə nəzarət artırılmalıdır".

***Vidadi ORDAHALLI***

**Ölüm canlı orqanizmin həyat fəaliyyətinin dayanmasıdır. Amma elm o dərəcədə inkişaf edib ki, indi insan ölüm anında bir neçə insana həyat verə bilər. Cansız bədəndə gərəksiz olan orqan sayəsində başqa insan həyatını davam etdirmək şansı qazanır.**

# Ölmüş şəxslərdən orqan köçürülməsilə bağlı qanun dəyişdirilir

***Adil Qeybulla:** "...yalnız bir nəfərin razılığının verilməsi müsbət haldır"*



*"Cəmiyyət daxilən qəbul etməlidir ki, həyatını itirməkdə olan bir insanın orqanı başqa bir insana həyat verə bilər"*

Məlumat üçün bildirək ki, bütün dünyada orqan köçürülməsinin təxminən 90-95 faizi meyitdən götürülən orqanların hesabına həyata keçirilir. Azərbaycanda isə meyitdən orqan köçürülməsi olmadığına görə bütün transplantasiyalar canlı insandan götürülən orqanların hesabına reallaşdırılır. Bu da bir tərəfdən donor üçün risqdir, digər tərəfdən geniş şəkildə transplantasiya həyata keçirməyə imkan vermir, yəni canlı insan yalnız cüt orqanlarını, tutaq ki, böyrəyinin birini, bir də bərpa olunan orqanını, yəni qara ciyərinin bir hissəsini verə bilər, ancaq digər orqanların canlı insandan transplantasiyası mümkün deyil.

Meyitdən orqan köçürülməsi uzun müddətdir müzakirə olunur. Bu məsələdə ölən şəxsin yaxınlarının orqan köçürülməsinə icazə verib-verməməsi sual doğururdu. Əksər hallarda ölən şəxsin yaxınları meyitdən orqan köçürülməsinə razılıq vermirdilər.

Ancaq "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" qanun layihəsinə edilən dəyişiklik sayəsində meyitdən orqan köçürülməsinə yalnız bir nəfər icazə verəcək.

Milli Məclisin Səhiyyə komitəsindən verilən məlumata görə, qanun layihəsində göstərilib ki, meyitdən orqan köçürülməsi, transplantasiya məsələsində ailə üzvlərindən və ya yaxın qohumlardan yalnız birinin razılığı, icazəsi alınacaq: "Çünki bütün qohumların razılığı alınmalı olsa, onda meyitdən orqan köçürülməsi mümkün olmayacaq. Ancaq gələcəkdə maarifləndirmə işi ona yönəldilməlidir ki, hər bir insan sağlığında orqanını vəsiyyət etsin. Əgər sağlığında vəsiyyət edibsə, artıq qohumun da razılığına ehtiyac qalmayacaq".

**Məsələ ilə bağlı fikir bildirən professor, tibbi ekspert Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, orqan köçürülməsi sahəsində bəzi problemlər var:** "İnsan yalnız kliniki ölüm keçirdiyi zaman onun orqanlarını götürmək olar. Orqan köçürülməsi məsələsində diqqət edilməli bir neçə nüans var. Orqan kimdən köçürülə bilər? Orqan beyin ölümü keçirmiş, orqanları hələ salamat olan, özü nəfəs alan, amma həyata qaytarılması mümkün olmayan şəxslərdən köçürülə bilər. Bunu da tibbi komissiya araşdırır və bundan sonra həmin insandan orqan köçürülməsinə icazə verir. Orqan köçürülməsi xəstənin himayədarı, atası, anası, qohumlarının razılığı olmadan həyata keçirilə bilməz. Yeni hazırlanacaq qanun layihəsində meyitdən orqan köçürülən zaman ölən şəxsin yaxınlarının deyil, yalnız bir nəfərin razılığının verilməsi müsbət haldır. Rəhmətə gedən şəxsin istənilən yaxın adamı razılıq verə bilər. Orqan köçürülməsinə razılığın verilməsi üçün öncə cəmiyyət buna hazır olmalıdır. Cəmiyyət daxilən qəbul etməlidir ki, dünyasını dəyişməkdə olan, həyatını itirməkdə olan bir insanın orqanı başqa bir insana həyat verə bilər.

Biz bunu, bir növ, qəbul etməliyik. Yalnız qəbul etdikdən sonra buna hazır ola bilərik. Təbliğat aparmaq, cəmiyyəti buna hazırlamaq lazımdır. Digər tərəfdən də sistem odur ki, Azərbaycanın bir rayonunda bir orqana ehtiyac varsa, başqa bir rayonda da donordan daxili orqan götürülübsə, dərhal növbədə olan adama köçürülür. Dünyanın hər yerində bu cür sistem var".

***Günel CƏLİLOVA***

**Azərbaycanda bank faizləri yüksək olaraq qalır. Banklarda kredit faizləri 28-36 aralığında dəyişir. Kredit faizlərinin yüksək olması vətəndaşların xərclərinin artması və ödənişlərdə problemlərin yaranması ilə nəticələnir. Banklar vətəndaşdan aldığı vəsaiti digərinə bəzi hallarda 6 dəfə çox faizlə verir.**

***Əli Əlirzayev:** ”Dövlət pul-kredit siyasətini tənzimləmək və nəzarətdə saxlamaq üçün verilən kreditlərin faiz dərəcələrinə limit qoya bilər”*

# Bank kreditlərinə son faiz həddinin qanunla rəsmiləşdirilməsi mümkündürmü...

*”Çünki kredit faizləri yüksək olanda çəkilən xərclər də artır”*

Bu da iqtisadi və sosial baxımdan uyğun deyil. Qeyd olunan məsələ dəfələrlə gündəmə gəlsə də, amma konkret addımlar atılmayıb. Kredit faizlərinin aşağı salınması Azərbaycan Milli Məclisində də iki dəfə gündəliyə salınıb, amma sonradan müzakirə olunmadan gündəlikdən çıxarılıb. Müvafiq olaraq "Banklar haqqında" Qanuna ediləcək dəyişikliklərdə nəzərdə tutulan kreditlərin aşağı salınması məsələsində hələlik heç bir irəliləyiş yoxdur. Banklar buna məhəl qoymur. Çünki kommersiya bankları özləri bu məsələdə maraqlı görünmürlər. Baxmayaraq ki, kredit faizlərinin aşağı salınması banklar üçün də effektiv olacaq. Faizlərin yüksək olması strateji baxımdan banklara yaxşı perspektiv vəd etmir. Kredit faizlərinin aşağı salınmasının iqtisadi və sosial baxımdan ciddi əsasları var.

Digər tərəfdən, bir sıra inkişaf etmiş ölkələr yüksək faizlərin qarşısını almaq üçün limit qoyurlar. Beynəlxalq təcrübədə bu üsul "faiz tavanı" adlandırılır. Yüksək faiz dərəcəsi inzibati qaydada tənzimlənir. Bir müddət əvvəl Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) bununla bağlı tədbirlər görəcəyi deyilirdi. Faiz limitləri isə bu cür nəzərdə tutulurdu: qaydalara əsasən bank faizləri 26-dan, komissiya xərcləri isə 0.5 faizdən çox ola bilməz. Ancaq sonradan buna baxan olmadı. O baxımdan kredit faizlərinə limitin qoyulmasına ekspertlər necə baxırlar?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, prinsipcə, yüksək faizlərə limit qoymaq olar:** "İlkin mərhələdə müəyyən müddət buna getmək olar. Bu bir qədər liberallığa qarşı olan addım olsa da, müəyyən zərurətdən buna hələlik getmək olar. Bütün bunlarla yanaşı, çalışmaq lazımdır ki, bankların ucuz




kredit resurslarına çıxış imkanları artsın. Belə olsa, inzibati metodların tətbiqinə o qədər də çox ehtiyac qalmaz. Nəticədə kredit faizləri təklifin artması səbəbindən düşəcək. Ancaq dövlət pul-kredit siyasətini tənzimləmək və nəzarətdə saxlamaq üçün verilən kreditlərin faiz dərəcələrinə limit qoya bilər. Verilən kreditlərə görə alınan faizlər arasında hədd qoyula bilər. Müəyyən müddət buna getmək olar. Çünki kredit faizləri yüksək olanda çəkilən xərclər də artır. Bu, müəyyən problemlərə səbəb olur. O baxımdan bu barədə müəyyən addımlar atmaq lazımdır. Çünki bizdə kredit faizləri çox yüksəkdir".

***Vidadi ORDAHALLI***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**BABAŞOV ŞAKİR ƏHMƏD oğlu**



3 sentyabr 1960-cı ildə Azərbaycan Respublikasının Cəbrayıl rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində yaşamışdır. Cəbrayıl RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babaşov Şakir Əhməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babaşov Şakir Əhməd oğlu 26 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babaşov Şakir Əhməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV ABDULLA PİLAĞA oğlu**

14 avqust 1975-cı ildə Azərbaycan Respublikasının Salyan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Salyan rayonunun Arbatan kəndində yaşamışdır. Salyan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Abdulla Pilağa oğlu Azərbaycan Res-



publikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Abdulla Pilağa oğlu 16 mart 1993-cü il tarixində Kəlbəcər rayonunun ərazisində Murovdağ istiqamətində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Abdulla Pilağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV AQİL SOLTANƏLİ oğlu**



16 iyul 1975-ci ildə Azərbaycan Respublikasının Astara rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Astara rayonunun Hamoşam kəndində yaşamışdır. Astara RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Aqil Soltanəli oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 12 fevral 1994-cü ildə Cəbrayıl rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Aqil Soltanəli oğlu 12 fevral 1994-cü il tarixində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Aqil Soltanəli oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV ARİF ƏLİ oğlu**

1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının Tovuz rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Tovuz rayonunun Ağacqala kəndində yaşamışdır. Tovuz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Arif Əli oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləş-



mələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 iyun 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Arif Əli oğlu 16 iyun 1993-cü il tarixində Ağdam rayonunun Qalayçılar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Arif Əli oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bakıdakı 20 saylı məktəbdə "İspan günləri" tədbirinə şagirdlərdən pul yığılması xəbəri araşdırıldı

**Bu günlərdə redaksiyamıza Bakı şəhərində yerləşən 20 saylı məktəb-liseydən şikayət daxil olub. Şikayətçilər 3-cü sinif şagirdlərinin valideynləridir. İddia edilir ki, sinfin valideynləri ilə yaradılmış "WhatsApp qrupu"nda tez-tez pul yığımı ilə bağlı təkliflər yazılır.**

***20 saylı məktəb direktorunun katibəsi Xanım:** "...bizim məktəbdə heç kimdən pul yığılmır"*

***Bəşarət Məmmədov:** "Təhsil İdarəsi tərəfindən münasibət bildirmək üçün bu məsələ araşdırılmalıdır"*

***Kamran Əsədov:** "İspan günləri" adlı tədbir üçün pul yığılması təəccüb doğurur, çünki adıçəkilən məktəbin kifayət qədər büdcəsi var"*

Bu təklifləri valideyn komitəsinin sədri göndərir. Daha doğrusu, sinif rəhbərinin göstərişinə əsasən valideyn komitəsinin sədri qrupdakı valideynlərdən ara-sıra pul yığır. Budəfəki "pul yığımı" isə məktəbdə keçiriləcək "İspan günləri" ilə bağlıdır. Valideynlər bildirirlər ki, hər şagirddən 5 manat istənilir, ümumiyyətlə, hər sinif üçün 100 manat dəyərində pul yığılması nəzərdə tutulur.

Valideynlər iddia edirlər ki, məktəbə, şagirdlərə aid olmayan tədbirlər üçün də "pul yığımı" prosesi gedir. Növbəti pul yığımı isə "İspan günləri" üçün keçiriləcək tədbirlə bağlıdır.

Məsələni dəqiqləşdirmək üçün 20 saylı məktəblə əlaqə saxladıq. İlk öncə məktəbin direktoru Səadət Veyisova ilə əlaqə saxlamağa cəhd göstərsək də, buna nail ola bilmədik. Özünü Xanım kimi təqdim edən katibə isə valideynlərin məlum şikayəti ilə bağlı bunları dedi: "Mən direktor və müavinləri ilə danışdım, bizim məktəbdə heç kimdən pul yığılmır. Hazırda direktorumuz məşğuldur, dərslərdədir. Valideyn gedib nazirliyə şikayət edə bilər. Səsyazma da ola bilməz. Əminliklə bildiririk ki, bir il beş aydır pul yığımı baş verməyib. Elə bir problem varsa, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə müraciət edilsin".

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov bizimlə söhbətində qeyd etdi ki, şikayətçi valideynlər yaranmış vəziyyətlə bağlı info@baku.edu.gov.az emailinə yazsınlar:** "Təhsil İdarəsi tərəfindən münasibət bildirmək üçün bu məsələ araşdırılmalıdır. Araşdırma üçün anonim olmayan müraciət lazımdır. Sorğu kimi isə info@baku.edu.gov.az və ya press@baku.edu.gov.az emailinə yazın".



**Təhsil eksperti Kamran Əsədov məsələ ilə bağlı bildirdi ki, təhsil müəssisələrində müxtəlif xalqlara, ölkələrə məxsus günlər keçirilir. Bu tip tədbirlər ya Təhsil Nazirliyinin, ya da orta məktəbin öz maliyyə dəstəyilə həyata keçirilir:** "Bu tip tədbirlərlə bağlı məktəb şagirdlərindən pul tələb olunması düzgün deyil. 20 saylı məktəbin şagirdlərindən "İspan günləri" adlı tədbir üçün pul yığılması təəccüb doğurur. Çünki adıçəkilən məktəbin kifayət qədər büdcəsi var".

Həmsöhbətimiz onu da vurğuladı ki, məktəblilərdən keçirilən hər hansı tədbir üçün pul yığılması qanunvericiliyin tələbinə ziddir: "Ümumiyyətlə, orta məktəblərdən heç bir tədbir üçün pul yığılmamalıdır.

**Nəzərə almaq lazımdır ki, orta məktəblər də dövlət müəssisəsidir. "İspan günləri" adlı tədbir kifayət qədər uğurlu layihədir. Bu tədbir sayəsində şagirdlərə həmin ölkənin mədəniyyəti, tarixi, mətbəxi ilə bağlı məlumat verilir. Belə bir tədbirin keçirilməsi üçün şagirdlərdən pul istənilməsi düzgün deyil".**

*Günel CƏLİLOVA*

# Məscidin axundunun iş yerində dollar saxlaması...

**Xəbər verildiyi kimi, Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən məsciddə axundun iş otağından oğurluq edilib. Bildirilir ki, zərərçəkən Binəqədi Rayon Polis İdarəsinin 6-cı Polis Bölməsinə müraciət edərək, otağın qapısının naməlum şəxs tərəfindən qırıldığını və oradan 1500 manat, eləcə də 500 ABŞ dollarının oğurlandığını deyib.**

***Seyid Camal Əzimbəyli:** "Axundlar bu kimi məsələlərə diqqət etməlidirlər"*

***Tural İrfan:** "Məscid ibadət yeridir, ora puldəyişmə yeri deyil ki, xarici valyuta toplansın"*

Bölmə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş Anar Mirzəyev saxlanıb. Saxlanan şəxs ifadəsində törətdiyi əməli etiraf edib.

Bu cinayət əməlində diqqətimizi bir məqam xüsusilə çəkdi. Axundun otağından oğurlanan pulların əskinasları xüsusilə maraqlı görünür. Söhbət oğurlanan pulun bir qisminin dollarla olmasından gedir. Düzdür, Azərbaycanda xarici valyuta saxlamaq, gəzdirmək cinayət əməli sayılmır. Ancaq Azərbaycan müstəqil dövlət olduğu üçün, xidmət sektorunda bütün hesablaşmalar milli valyuta ilə həyata keçirilir, xüsusən də məscidlərdə. Bu baxımdan maraqlıdır, axundun iş otağında 500 ABŞ dolları niyə saxlanır? Təbii ki, hadisə onun evində olsaydı, bu təəccüblü görünməzdi. Ancaq nəzərə alsaq ki, bu pul məsciddən oğurlanıb, o zaman bu qəribə təəssürat yaradır. Çünki məscidə daxilolmalar orada göstərilən xidmətlərə görə olur. Kimsə nəzir verir, ölü yuyulmasına görə ödəniş edilir. Quran oxudan olur və buna görə ödəniş edilir. Yəni müəyyən bir xidmətlər var ki, onlar da məsciddə dollarla aparılmır. O baxımdan 500 dolların axundun iş otağında olması qəribə görünür. Mənəvi baxımdan bu nə dərəcədə doğrudur?

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, məscidin adının belə məsələlərdə hallandırılması yaxşı deyil:** "Məscid axundları bu kimi məsələlərə diqqət etməlidirlər. Bəlkə də kimsə məscidə yardım məqsədilə 500 dollar ianə verib. Bunu demək çətindir. İstənilən halda, məscid ibadət yeridir. Belə halların yaşanması yaxşı deyil".



**İlahiyyatçı Tural İrfanın sözlərinə görə, bilmək olmur həmin axund rəsmidir, yoxsa qeyri-rəsmi:** "Hər bir şəxsin özünün iş yerində müəyyən vəsaiti ola bilər. Ancaq, ümumilikdə, belə halların yaşanması doğru deyil. Bunun da bir sıra səbəbləri var. Axundların, məscidlərdə xütbə, moizə oxuyan və dini təbliğ edən ruhanilərin əksəriyyəti bizim milli adət-ənənələrimizə, həqiqətən mötədil islam dininə etiqad etməyənlərdir. Bunların əksəriyyəti xaricdən mayalanan insanlardır. Xaricdə təhsil almış, orada formalaşmış "islamın" təsiri altında olan insanlardır. Onlar da hərəsi öz məzhəbinə uyğun olaraq dini təbliğat aparır. Ona görə də belə xoşagəlməz hallar yaşanır. İstənilən halda, məsciddə belə halların yaşanması yaxşı deyil. Çünki məscid ibadət yeridir, ora puldəyişmə yeri deyil ki, xarici valyuta toplansın. Xalça, palaz oğurlansaydı, bu qəribə görünməzdi. Məsciddə xarici valyutanın olması, bunun oğurlanması kənardan başqa cür başa düşülür".

*Vidadi ORDAHALLI*

**Azərbaycanda yaranan, tarixən inkişaf edən və günümüzə qədər mövcudluğunu qoruyan xalq sənəti növlərinin hazırkı vəziyyəti mütəxəssisləri ciddi düşündürür. Tarixən ölkəmizdə formalaşmış və XX əsrin ortalarına qədər tələbat olan bu xalq sənəti növlərininin qorunmasına, inkişafına və yayılmasına ciddi ehtiyac var.**

# Qədim xalq sənəti növlərimiz özünüməşğulluq proqramlarında...

## *Natiq Cəfərli: "... turistləri maraqlandıran məhsulların istehsalı və satışı əlavə büdcə gəlirlərinin artmasına səbəb olar"*





Qədimlərdən bəri mövcud olan ənənəvi xalq sənəti növlərimiz: dabbaqlıq, çəkməçilik, papaqçılıq, sərraclıq, dəmirçilik, həkkaklıq, qalayçılıq, dulusçuluq, dərzilik və sair bunlar kimi unikal dəyərlərimiz bu gün də öz gərəkliliyi ilə diqqəti cəlb etməlidir.

Götürək sərraclıq sənətini. Sərraclar dabbaqların aşıladığı dəri məmulatlarından istifadə edərək çantalar, dağarcıqlar, at yəhərləri, məişətdə istifadə edilən digər nümunələr hazırlayıblar.

Məlumdur ki, xalqımızın tarix boyu yaratdığı bir çox sənət növü kimi sərraclıq da nəsildən-nəslə keçərək dövrümüzədək gəlib çatıb və nə yaxşı ki, hazırda az sayda olsa da, bu sənəti yaşadanlar var.

Sərraclıq da daxil olmaqla, bütün xalq sənəti növlərinin inkişafı üçün onların özünüməşğulluq proqramına cəlb edilməsi vacibdir. Sənətkarlar özünüməşğulluq proqramına qoşularsa, bu proqram çərçivəsində həm öz sənətlərini yaşadar, həm əl işlərini satar, həm də bu nümunələri təbliğ edərlər. Heç şübhəsiz ki, sənət növlərinə alıcı marağının artması da onların işinə böyük təkan verər.

Məsələ burasındadır ki, xalq sənəti növləri ilə məşğul olan sənətkarlar materialları olduqca baha qiymətə aldığı üçün, onlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dəstək verilməsi vacibdir.

Qeyd edək ki, bəzi sənət növləri ilə məşğul olan sənətkarlar qismən də olsa özünüməşğulluq proqramına qoşula biliblər. Bu da onların lazımi materiallarla təmin olunmasına kömək edir.

Məlumatlara görə, bu proqrama qoşulan sərraclara verilən aktivlər hesabına minik və yük heyvanları üçün dəri aksesuarları hazırlamaq üzrə öz ailə bizneslərini formalaşdırırlar.

Mütəxəssislər bildirirlər ki, bu gün dövlət özünüməşğulluq proqramını yaratmaqla ata-babadan qalma sənəti davam etdirmək üçün böyük şərait yaradır. Bu proqrama qoşulan sərraclar emalatxanasında minik və yük heyvanları üçün yəhər, yüyən, tapqır, noxta, quşqun və sair aksesuarlar düzəldir və təmir edirlər.

Əlbəttə, dövlət tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına və bununla da fəal həyat mövqeyinin formalaşmasına xüsusi diqqət yetirilir. Bu baxımdan, Prezident İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli Sərəncamı mühüm əhəmiyyət daşıyır. Sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla, özünüməşğulluq fəaliyyəti ilə işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin, kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.

Xalq sənəti növləri ilə məşğul olan sənətkarların özünüməşğulluq proqramına cəlb edilməsinin nə kimi effektiv nəticələri ola bilər?

İqtisadçı-ekspert **Natiq Cəfərli "Bakı-Xəbər"ə bildirdi ki, xalq sənəti ilə məşğul olan sənətkarların özünüməşğulluq proqramına cəlb edilməsinin çox mühüm əhəmiyyəti ola bilər.** "Bu olduqca maraqlı mövzudur. Qlobal götürdükdə, eyni zamanda, turizmin inkişafına təkan verən bir məsələdir. Xalq sənəti örnəkləri, əl işi nümunələri xaricdən, əsasən də Amerikadan, Avropadan, Çindən gələn turistlər üçün çox böyük maraq kəsb edir. Bu məsələyə turizmin inkişafı ilə paralel bir konsepsiya olaraq yanaşmaq daha doğru olar. Xalq sənəti növlərində özünüməşğulluq üçün kifayət qədər ciddi perspektiv var. Həm tarixi milli ənənələri dirçəltmək, həm irsi bərpa etmək, yeni məktəblərin yaranması baxımından çox əhəmiyyətlidir. Yəni hələ ki, bu sənətlərin inkişafında rolu olan və bu sənət növlərini gənclərə öyrədən insanların olduğunu nəzərə alaraq, yeni məktəblərin yaradılması üçün bu çox vacib məsələdir. Xalq sənəti növlərinin özünüməşğulluq proqramına cəlb edilməsi baş verərsə, bu həm iqtisadi, həm də kulturoloji-mədəni nöqteyi-nəzərdən çox vacib istiqamətlərdən birinə çevrilə bilər. Bunun üçün, təbii ki, dövlət tərəfindən bir sıra addımların atılmasına ehtiyac var. Bunun üçün xüsusi bir proqramın qəbul olunmasına zərurət yaranıb".

*"Bunun üçün xüsusi bir proqramın qəbul olunmasına zərurət yaranıb"*

*"Xalq sənəti növlərində özünüməşğulluq üçün kifayət qədər ciddi perspektiv var"*

O vurğuladı ki, bu sahənin daha da inkişafı üçün sənətkarlara uzunmüddətli, aşağı faizli, yaxud da faizsiz kredit imkanlarından yararlanmaq yollarını axtarmaq lazımdır. Onun sözlərinə görə, bu da xalq sənəti ilə məşğul olan, bu sahələri inkişaf etdirən insanlara böyük köməklik olardı. "Xalq sənəti növlərini inkişaf etdirmək istəyən insanlar ucuz və uzunmüddətli kreditlərə çıxış əldə etməlidirlər ki, özləri bu işləri davam etdirmək üçün müəyyən işlər görə bilsinlər. Ancaq, paralel olaraq, dövlət də onları ilkin 5-10 il müddətinə vergidən və digər ödənişlərdən azad edə bilər. Yəni bu baş verərsə, bu sənət növləri dirçələr. Bunun üçün dövlət, ictimai təşkilatlar burada aktiv şəkildə yer ala bilər. Amma buna qlobal bir konsepsiya kimi baxmaq lazımdır. Yəni həm turizmin inkişafı, həm də milli dəyərlərin qorunması kontekstindən birgə layihə işlənib hazırlanmasına ehtiyac var" - deyə N.Cəfərli qeyd etdi.

Xalq sənəti növlərinin bir-birilə əlaqədar olduğuna diqqət çəkən ekspert bildirdi ki, bir sənətin inkişafı digər sənətin də dirçəlməsinə səbəb olacaq. N.Cəfərli hesab edir ki, buna görə də bu sahəyə kompleks yanaşma sərgilənməlidir: "Özünüməşğulluq proqramı çərçivəsində xalq sənəti növlərinin inkişafı həm insanlarımız üçün böyük gəlir mənbəyinə çevrilə bilər, həm də turistləri maraqlandıran məhsulların istehsalı və satışı əlavə büdcə gəlirlərinin artmasına səbəb olar. Yəni burada müxtəlif istiqamətləri ciddi analiz edib bir iqtisadi pasport çıxarmağa və kompleks şəkildə məsələlərə baxmaq vacibdir".

N.Cəfərli qeyd etdi ki, xalq sənəti ənənələrinin inkişaf etdirilməsi Azərbaycan mədəniyyəti, turizmi, iqtisadiyyatı üçün böyük fayda verə bilər.

***İradə SARIYEVA***

№ 69 (3967) ■ Qiymətı: 40 qəpik

# BAKI XƏBƏR

18 APREL 2019-cu il

www.baki-xeber.com

## "Azercell"in sərfəli "Sadə" tarif paketi ilə danışıqlarınıza sərhəd qoymayın!

*"Azercell" Sim-Sim abunəçiləri üçün yeni "Sadə" tarif paketini təqdim edir*

**Ölkənin telekommunikasiya bazarında ən sərfəli təklifləri təqdim etməyi hədəfləyən "Azercell", yeni "Sadə" tarif paketini abunəçilərinin istifadəsinə verib.**




Aprel ayının 16-dan etibarən, "Azercell"in Sim-Sim abunəçiləri yeni "Sadə" tarif paketi çərçivəsində həftəlik "S2" və aylıq "S6" paketlərdən yararlana biləcəklər. Beləliklə, "Azercell" abunəçiləri həftədə 2 AZN ödəməklə 150 şəbəkədaxili dəqiqə və 150 şəbəkədaxili SMS, ayda 6 AZN ödəməklə isə 500 şəbəkədaxili dəqiqə və 500 şəbəkədaxili SMS həcmində paketlərdən faydalanma imkanı əldə edirlər.

**Həftəlik paket sifariş etmək üçün S2 açar sözünü, aylıq paket üçün isə S6 açar sözünü 7575 qısa nömrəsinə göndərmək kifayətdir.**

Artıq daha az ödəniş etməklə, "Azercell"dən daha çox pulsuz SMS və dəqiqələr əldə edin! "Azercell"in sərfəli "Sadə" tarif paketindən faydalanaraq sevdiklərinizlə danışıqlarınıza sərhəd qoymayın!

Əlavə məlumat üçün https://www.azercell.com/az/personal/tariffs/prepaid/sade/ səhifəsinə daxil olun.

## Elan

Şəki rayonu, Aşağı Küngüt kənd sakini Yusifov Mabud Yusif oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0075 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiçik Dəhnə kənd sakini Mikayılova Tərgül Mahmud qızının və ailə üzvlərinin adına verilmiş JN: 1026 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Əliyeva Gülnar Nəsib qızının Abşeron rayonu, Hökməli kəndində yerləşən torpaq sahəsinin (JN-902 "A" kod 30800036) mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Vəliyeva Nigar Müqəddəs qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Osmanov Həzrət Xasay oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən torpaq sahəsinə Biləcəri Bələdiyyəsi tərəfindən verilmiş 02 fevral 2007-ci il tarixli, №157 qərar itdiyi üçün etibarsız sayılır.

Ceniyeva Leyla Arzu qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Dəmirov Elvin Sayıl oğluna Azərbaycan İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayev Telman Soin oğlunun adına, Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Fərman Kərimzadə küçəsi, ev 30/2 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## "Nar" 4G istifadəçilərinin sayı 1 il ərzində 2 dəfədən çox artıb

**Ölkənin ən gənc mobil operatoru "Nar"ın 4G istifadəçilərinin sayı sürətlə artmaqdadır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə "Nar" 4G internetindən istifadə edənlərin sayı 110% artaraq 600 mindən çox olub. Ümumilikdə,"Nar" abunəçilərinin 25%-i yüksəksürətli 4G internetinin istifadəçisidir.**

Mobil operatorun 4G istifadəçilərinin sayının artmasına ölkə ərazisində yeni baza stansiyalarının sürətlə quraşdırılması, eləcədə 4G smartfon penertasiyasının artımı təsir edib. Belə ki, son 1 ildə "Nar"ın smartfon istifadəçilərinin sayı 20% çoxalıb.

Qeyd edək ki, "Nar"4G xidmətini paytaxtla yanaşı, bölgələrdə, şəhər və rayon mərkəzlərində də təqdim etməkdədir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bölgələrdə internet istifadəçilərinin sayı 75% artıb. "Nar" 4G istifadəçilərinin 71%-i paytaxt Bakının, 29%-i isə regionların payına düşür. Mobil operatorun 4G baza stansiyalarının təqdim etdiyi yüksək keyfiyyətli mobil internet xidməti nəticəsində, internet trafikinin həcmi son 1 ildə 70%-ə qədər yüksəlib.

4G keyfiyyəti ilə yanaşı, "Nar"ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır. Limitsiz internet paketləri, müştərilərə həm internet, həm danışıq dəqiqələrini paket şəklində bir arada almaq imkanı verən tariflər "Nar" 4G istifadəçilərinin sayının artmasına təsir edib.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## "Bakcell"dən uşaq şahmat turnirinə növbəti dəstək

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" 7-12 aprel 2019-ci il tarixlərində Bakı şəhərində keçirilmiş uşaqlar arasında 18-ci beynəlxalq şahmat turnirinə dəstək göstərib.**

Frankofoniya günlərinə həsr edilmiş bu ənənəvi turnir "Gənclik" şahmat klubu və Fransanın Azərbaycandakı Səfirliyi tərəfindən Azərbaycan Şahmat Federasiyasının təşkilati dəstəyilə keçirilib. İsveçrə sistemi üzrə keçirilmiş turnirdə Azərbaycan, Fransa, Böyük Britaniya, Gürcüstan, Rusiya, Ukrayna, Almaniya, Serbiya və Qazaxıstandan 80-dən çox gənc şahmatçı iştirak edib.

Turnirin nəticələrinə əsasən, "A" qrupunun qalibi Azərbaycandan Altay Eynullayev olub. O, Fransada keçiriləcək turnirdə iştirak etmək hüququ qazandı. "B" qrupunda isə ukraynalı Mariya Timçenko ən yüksək nəticə göstərib.

"Bakcell" şirkəti artıq bir neçə ildir ölkəmizdə keçirilən beynəlxalq uşaq şahmat turnirlərinə öz dəstəyini əsirgəmir. Özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə şirkət Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaqlara yönəlmiş genişmiqyaslı layihələri həyata keçirir.





**Qoç** - Günün ilk yarısında üzləşdiyiniz problemin həllində bütün mümkün vasitələrdən istifadə edin. Rəqiblər sizin zəifliyinizi gözləyir, yeni məkrli plan qururlar. Mümkün qədər diqqətli olun.



**Buğa** - Maliyyə məsələlərini tələsik həll etməyin. Tərəfdaş və şəriklərlə qarşılıqlı münasibətlərdə diqqətli olun, maraqların təsirini unutmayın. Xoşagəlməz situasiya, pul itkiləri və yalan istisna deyil.



**Əkizlər** - Danışıqlar və müzakirələr üçün əlverişli zamandır. Situasiyadan yararlanın. Dəvət aldığınız tədbirlərə qatılmaqdan boyun qaçırmayın. Aktiv olun, başqalarının əldən verdikləri şanslardan siz yararlanın.



**Xərçəng** - Tələskənliyin, vurnuxmanın çox olduğu bir gündür. Aktiv təmasda olun, məktublara və mesajlara cavab verin. Prioritetləri dürüst müəyyənləşdirin. Əks təqdirdə, sinirlənərək itkilərə yol verə bilərsiniz.



**Şir** - Adi, yeknəsək, rutin iş sizi darıxdırmasın. Belə məsələlərə başdansovdu yanaşsanız, sonradan ağır fəsadlara səbəb olacaq prosesə təkan verəcəksiniz. Əməyinizin nəticəsini görəcəksiniz.



**Qız** - Günün ilk yarısından etibarən planlarınızı həyata keçirməyə başlayın. Kiçik gecikmələr və təxirəsalmaların öhdəsindən gələ bilərsiniz. Yaşam potensialınızın səviyyəsi yüksəkdir.



**Tərəzi** - Günün ilk yarısında işlərdə uğurlar olacaq. Ünsiyyətdə aktiv olsanız, kollektivdəki mövqeləriniz daha güclü və səbatlı olacaq. Karyera inkişafı, gəlirlərin artımı istisna deyil.



**Əqrəb** - İşgüzarlığı artırın. Praktik olun. Yaxşı ideyalar yaranacaq. Bəzi maliyyə problemlərini həll etmək şansları yaranıb. Məlumat, bilik və informasiya ilə bağlı layihə gəlir verə bilər.



**Oxatan** - Yaşam tonusunuzun səviyyəsi yüksələcək. İntellektual fəaliyyət üçün əlverişli zamandır. Bilik və informasiyanızı artırın. Maliyyə əməliyyatları aparanda diqqətli olun. Qısa səfərə çıxmaq olar.



**Oğlaq** - Yaradıcılıqla məşğulsunuzsa, əlverişli gündür. İntuisiyanıza güvənin. Çətin problemlərin həllini aktivləşdirmək üçün yeni ideyaya ehtiyac var. Rutin və yeknəsək metodlar işlək deyil.



**Dolça** - Əhvalınız dəyişəcək, hətta bəlkə pisləşəcək də. Aqressiv, qıcıqlı olmayın. Kiçik iradlara sərt reaksiya verməyin. Özünüzü ələ alın. İntizamlı, soyuqqanlı, təmkinli olun.



**Balıqlar** - Əməyinizin bəhrəsini görmək istəyirsinizsə, təvazökar olun. Yaxın ətrafınızdakı insanların fikirlərini və mövqelərini nəzərə alın. Kommunikativ bacarıqlarınız yüksək olmalıdır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Çində 17 min il yaşı olan saxsı qab parçası tapıldı

**Çin arxeoloqları ölkənin cənubundakı Quandun vilayətində təxminən 17 min il əvvələ aid olduğu güman edilən saxsı qabın hissəsini tapıblar.**

"AZƏRTAC" bildirir ki, Paleolit dövrünə aid saxsı qabın bir hissəsi İnde şəhəri ərazisindəki Çintan xarabalıqlarından tapılıb. Bu, Çində ilk saxsı qabın məhz ölkənin cənub hissəsində istifadə olunduğunu göstərir. Bildirilir ki, 2016-cı ildən bəri Çintan xarabalıqlarında 10 mindən çox qədim əşya və ya onların hissələri, habelə insan sümüyü tapılıb. Bundan başqa, ərazidə yemək bişirmək və saxlamaq üçün xüsusi yerlər aşkarlayıblar. Çintan xarabalıqlarından tapılanlar Çinin 10 ən vacib arxeoloji tapıntıları sırasına daxil edilib.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.